Rabitəbank

ESİ və Dayanıqlı bankçılıq hesabatı

2025

Mündəricat

İDARƏ HEYƏTİNİN SƏDRİNDƏN	3-7
HESABAT HAQQINDA	8-10
RABİTƏBANK HAQQINDA	11-17
İDARƏETMƏ STRUKTURU	18 23
NİZAMNAMƏ KAPİTALININ STRUKTURU	24
STRATEJİ PLAN, MİSSİYA, MƏQSƏD VƏ DƏYƏRLƏR	25-35
MÜKAFATLAR	36-38
TÖRƏMƏ ŞİRKƏTLƏR	39-40
BANK SEKTORUNUN ANALİZİ	41-45
ESİ GÖRÜLƏN İŞLƏR	46-57
EKOLOJİ GÖSTƏRİCİLƏR	58-63
SOSİAL TÖHFƏLƏR	64-69
ƏMƏKDAŞLIQLAR	70-75
MÜŞTƏRİYÖNÜMLÜLÜK	76-83
ƏMƏKDAŞYÖNÜMLÜLÜK	84-96
KORPORATİV İDARƏETMƏ	97-99
KOMPLAYENS STRUKTURU	100-106
RİSKLƏRİN İDARƏ EDİLMƏSİ	107-114
RƏQƏMSALLAŞMA	115-124
GRI STANDARTLARINA UYĞUNLUQ CƏDVƏLİ	125-137

İdarə Heyətinin sədrindən

Hörmətli səhmdarlar, müştərilər və dəyərli tərəfdaşlar!

Rabitəbank olaraq fəaliyyətimizi etibar, innovasiya və davamlı inkişaf prinsipləri üzərində quraraq hədəflədiyimiz növbəti mərhələlərə inamla irəliləyirik. Geridə qoyduğumuz dövr bankımız üçün həm strateji inkişafın sürətləndiyi, həm də müştərilərimizə daha yaxın olmaq istiqamətində mühüm addımların atıldığı bir mərhələ kimi yadda qaldı.

Fəaliyyət strategiyamızın əsas istiqamətlərindən biri regionlarda maliyyə xidmətlərinin əlçatanlığının artırılması, sahibkarlığın inkişafının dəstəklənməsi və müştəri məmnuniyyətinin yüksəldilməsidir. Bu istiqamətdə ardıcıl addımlar ataraq filial şəbəkəmizi daha da genişləndirdik. 2025-ci ildə bankımızın 28-ci filialı Tovuz, 29-cu filialı isə Bərdə şəhərində fəaliyyətə başladı. Hər iki filialın açılışı regionlarda müasir bank xidmətlərinin əlçatanlığının artırılmasına və yerli biznesin inkişafına dəstəyimizin davamı oldu. Daha sonra Naxçıvan filialımız yeni konsepsiya ilə yenidən istifadəyə verildi.



Aydın Hüseynov

İdarə Heyətinin sədri

Müasir texnoloji həllərlə təchiz olunan filial daha çevik, innovativ və müştəriyönümlü xidmət modelinə keçid edərək regionda müştərilərimizə daha keyfiyyətli xidmət göstərməyə başladı.

Xüsusi qürur hissi ilə qeyd etmək istərdim ki, 30-cu filialımızın Xankəndi şəhərində fəaliyyətə başlaması bankımız üçün strateji və xüsusi əhəmiyyət daşıyan mühüm addım oldu. Bu filialın açılışı Rabitəbankın regionlarda iqtisadi aktivliyin artırılmasına və sahibkarlığın inkişafına verdiyi töhfənin davamı olmaqla yanaşı, müasir bank xidmətlərinin Qarabağ iqtisadi rayonunda da əlçatanlığını təmin edir. Bu addım yalnız bankımızın inkişaf strategiyasının tərkib hissəsi deyil, eyni zamanda ölkəmizin işğaldan azad edilmiş ərazilərində iqtisadi həyatın bərpasına və maliyyə infrastrukturunun gücləndirilməsinə verilən töhfənin bariz nümunəsidir.

Paytaxtda da inkişafımızı davam etdirərək 31-ci filialımızı Bakı şəhərinin Babək prospektində müştərilərimizin istifadəsinə verdik. Bununla yanaşı, baş ofisimizin şəhərin mərkəzində yerləşən yeni ünvana köçürülməsi təşkilati çevikliyimizin, korporativ inkişafımızın və gələcəyə yönəlmiş baxışımızın daha bir göstəricisi oldu.

Eyni zamanda Kartmane məhsul xəttinin inkişafı, rəqəmsal bankçılıq həllərinin genişləndirilməsi və gündəlik maliyyə əməliyyatlarının daha da sadələşdirilməsi istiqamətində fəaliyyətimizi davam etdirdik. Məqsədimiz müştərilərimizə yalnız bank xidməti deyil, onların həyatını asanlaşdıran kompleks maliyyə həlləri təqdim etməkdir.

2025-ci il innovativ məhsul və xidmətlərin təqdim olunması baxımından da bankımız üçün əlamətdar il oldu. Müasir dövrdə maliyyə savadlılığının erkən yaşlardan formalaşdırılmasının vacibliyini nəzərə alaraq, ölkəmizdə ilk dəfə olaraq 7–17 yaş arası uşaqlar üçün nəzərdə tutulmuş Rabita Junior mobil tətbiqini istifadəyə verdik. Rabita Junior uşaqların maliyyə dünyası ilə ilk tanışlığını düzgün və məsuliyyətli şəkildə qurmaq üçün hazırlanmış innovativ platformadır. Tətbiq valideynlərə övladlarının xərclərini real vaxt rejimində izləmək, limitlər təyin etmək və maliyyə davranışlarını idarə etmək imkanı yaradır. Oyunlaşdırılmış yanaşma vasitəsilə uşaqlarda büdcə idarəetməsi, qənaət və planlama vərdişləri formalaşdırılır, Kartmane Junior kartı ilə inteqrasiya isə onların maliyyə müstəqilliyini təşviq edir.

Müştərilərimiz üçün maliyyə imkanlarını daha da genişləndirmək məqsədilə Rabita Mobile tətbiqi üzərindən Rabita Invest xidmətini istifadəyə verdik. Bu xidmət investisiyanı daha əlçatan və sadə edərək onu gündəlik bank təcrübəsinin ayrılmaz hissəsinə çevirdi. Müştərilərimiz artıq beynəlxalq maliyyə bazarlarına çıxış əldə edərək qlobal şirkətlərin səhmlərinə və müxtəlif investisiya alətlərinə rahatlıqla investisiya edə bilirlər. Sadə interfeys, sürətli qeydiyyat və real vaxt rejimində izləmə imkanları investisiya prosesini daha şəffaf və operativ edir.

2025-ci il maliyyə göstəricilərimiz baxımından da uğurlu nəticələrlə yadda qaldı. Hesabat dövrünü 11 milyon 331 min manat xalis mənfəətlə başa vuraraq bankımızın maliyyə dayanıqlığını və səmərəli fəaliyyətini bir daha təsdiqlədik. Ümumi aktivlərimiz 21,5 faiz artaraq 1 milyard 402 milyon manata çatdı. Kredit portfelimiz 941 milyon manatı ötərək artım tempini qorudu, biznes, istehlak və ipoteka kreditləri üzrə müsbət dinamika davam etdi. Eyni zamanda əmanət portfelimiz təxminən 30 faiz artaraq 878 milyon manata yüksəldi. Bu nəticələr müştərilərimizin bizə olan etimadının və həyata keçirdiyimiz strateji qərarların uğurlu nəticəsinin göstəricisidir.

Ötən il ərzində tərəfdaşlıqların genişləndirilməsi də fəaliyyətimizin əsas istiqamətlərindən biri oldu. MÜSİAD Azərbaycan ilə imzalanan əməkdaşlıq memorandumu çərçivəsində İslam bankçılığı və sahibkarlığın inkişafı istiqamətində yeni imkanlar yaradıldı. Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq isə məşğulluğun artırılması və sosial təşəbbüslərin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi.

Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində də mühüm nailiyyətlər əldə etdik. Bankımız dünyanın ən nüfuzlu maliyyə institutlarından biri olan Bank of New York Mellon-da müxbir hesab açaraq qlobal maliyyə şəbəkəsində mövqeyini daha da gücləndirdi. Bu strateji addım Rabitəbankın beynəlxalq maliyyə bazarlarında yüksək etibarının və işgüzar nüfuzunun göstəricisi olmaqla yanaşı, müştərilərimiz üçün 30-dan çox xarici valyutada sürətli, təhlükəsiz və rahat beynəlxalq əməliyyatların həyata keçirilməsinə əlavə imkanlar yaratdı. Eyni zamanda, bu əməkdaşlıq sahibkarların xarici ticarət və investisiya fəaliyyətinin genişlənməsinə, yerli bizneslərin qlobal bazarlara çıxış imkanlarının artırılmasına və ölkə iqtisadiyyatının inkişafına töhfə verməyə xidmət etdi.

Hesabat dövründə Qara Dəniz Ticarət və İnkişaf Bankının nümayəndə heyətini də bankımızda qəbul etdik. Görüş zamanı mövcud əməkdaşlığımızın nəticələri və gələcək inkişaf istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Hazırda Rabitəbank Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə 8,5 milyon ABŞ dolları həcmində kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihəsini uğurla həyata keçirir. Bu tərəfdaşlıq sahibkarların maliyyə resurslarına çıxış imkanlarını genişləndirərək ölkəmizdə biznes mühitinin inkişafına və iqtisadi dayanıqlığın gücləndirilməsinə mühüm töhfə verir.

Bununla yanaşı, ECO Ticarət və İnkişaf Bankı ilə imzalanmış maliyyələşdirmə sazişi vasitəsilə mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində imkanlarımızı daha da genişləndirdik. Təhsil sahəsində isə UNEC ilə əməkdaşlığımız çərçivəsində gənclərin peşəkar inkişafına yönəlmiş təlim və təcrübə proqramları uğurla davam etdirildi.

Bankımız üçün innovasiya yalnız maliyyə xidmətlərinin inkişafı ilə məhdudlaşmır, eyni zamanda gələcəyin peşəkarlarının və texnoloji ekosistemin formalaşmasına dəstək verməyi də əhatə edir. Bu baxımdan Rabitəbank olaraq ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli layihələrin və təşəbbüslərin fəal tərəfdaşı olmağa davam etdik. Dünyanın ən nüfuzlu proqramlaşdırma yarışmalarından biri olan ICPC-nin Bakı finalına dəstək verməklə gənc istedadların inkişafına, innovasiya mühitinin gücləndirilməsinə və Azərbaycanın beynəlxalq texnologiya platformalarında mövqeyinin möhkəmlənməsinə öz töhfəmizi verdik.

2025-ci il ərzində həyata keçirdiyimiz fəaliyyətlər beynəlxalq səviyyədə də yüksək qiymətləndirildi. Asiya İnkişaf Bankı tərəfindən təşkil olunan "Trade and Supply Chain Awards 2025" müsabiqəsində "Leading Partner Bank in Azerbaijan" nominasiyası üzrə qalib seçilməyimiz beynəlxalq ticarətin maliyyələşdirilməsi sahəsində qazandığımız təcrübənin, tərəfdaşlarımızın bizə göstərdiyi etimadın və yüksək xidmət keyfiyyətimizin növbəti təsdiqi oldu. Bu mükafat beynəlxalq maliyyə institutları ilə qurduğumuz strateji əməkdaşlıqların və ölkə biznesinin xarici bazarlara inteqrasiyasına verdiyimiz dəstəyin mühüm nəticəsidir.

Fəaliyyətimizin ölkə daxilində də yüksək qiymətləndirilməsi bizim üçün xüsusi qürur mənbəyidir. Azərbaycan Banklar Assosiasiyası tərəfindən təşkil olunan "Bankçılıq Mükafatları – 2025" çərçivəsində Rabitəbank dörd nüfuzlu nominasiya üzrə qalib seçildi. Bankımız korporativ sosial məsuliyyət, təhsil dəstəkçisi, rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi və beynəlxalq əməkdaşlığın inkişafında fərqlənən bank nominasiyaları üzrə mükafatlara layiq görüldü. Bu uğurlar həyata keçirdiyimiz strateji fəaliyyətin, innovativ yanaşmamızın və cəmiyyət üçün dəyər yaratmaq istiqamətində gördüyümüz işlərin mühüm qiymətləndirilməsidir. Eyni zamanda bu nailiyyətlər gələcək hədəflərimizə daha böyük məsuliyyət və inamla irəliləməyimiz üçün əlavə motivasiya mənbəyidir. Rabitəbank olaraq inanırıq ki, dayanıqlı inkişaf yalnız maliyyə göstəriciləri ilə deyil, cəmiyyətə, iqtisadiyyata və insan kapitalına verilən töhfələrlə ölçülür. Buna görə də fəaliyyətimizi müştərilərimizin etibarını qorumaq, tərəfdaşlarımız üçün etibarlı maliyyə institutu olmaq, innovativ həllər təqdim etmək və ölkəmizin sosial-iqtisadi inkişafına davamlı dəstək vermək prinsipləri üzərində qururuq.

Geridə qoyduğumuz dövr ərzində əldə etdiyimiz hər bir uğurun arxasında əməkdaşlarımızın peşəkarlığı, müştərilərimizin etimadı və tərəfdaşlarımızın dəstəyi dayanır. Biz bu etimadı fəaliyyətimizin ən böyük dəyəri hesab edir və onu hər gün daha da möhkəmləndirmək üçün çalışırıq.

Qarşıdakı dövrdə də "Rahat bankçılıq" prinsipinə sadiq qalaraq rəqəmsal transformasiyanı sürətləndirməyi, beynəlxalq əməkdaşlıqlarımızı genişləndirməyi, sahibkarlığın inkişafına daha böyük dəstək göstərməyi və müştərilərimiz üçün innovativ maliyyə həlləri yaratmağı davam etdirəcəyik. Məqsədimiz yalnız bu günün deyil, gələcəyin bankını qurmaq və ölkəmizin iqtisadi inkişafına uzunmüddətli töhfə verməkdir.

Sizə göstərdiyiniz etimada, əməkdaşlığa və uzun illərdir davam edən tərəfdaşlığınıza görə dərin təşəkkürümü bildirir, birlikdə daha böyük uğurlara imza atacağımıza əminliyimi ifadə edirəm.

Hörmətlə:

Aydın Hüseynov

"Rabitəbank" ASC-nin İdarə Heyətinin sədri

Hesabat haqqında

Qısa İcmal

Bu hesabat “Rabitəbank” ASC (bundan sonra – Bank) tərəfindən 2025-ci il üzrə Ekoloji, Sosial və İdarəetmə (ESİ) prinsipləri çərçivəsində həyata keçirilmiş əsas fəaliyyətlərin, institusional yanaşmanın və idarəetmə mexanizmlərinin ictimaiyyətə açıqlanması məqsədilə hazırlanmışdır. Bank ESİ-ni yalnız sosial məsuliyyət təşəbbüsləri kimi deyil, risklərin idarə edilməsi, dayanıqlı inkişafın təmin edilməsi və korporativ nüfuzun qorunması baxımından strateji əhəmiyyətə malik yanaşma kimi qiymətləndirir. ESİ prinsiplərinin tətbiqi Bankın uzunmüddətli maliyyə dayanıqlılığının gücləndirilməsinə, tənzimləyici tələblərə uyğunluğun təmin edilməsinə və maraqlı tərəflərin etimadının artırılmasına xidmət edir.

2025-ci il ərzində Bank tərəfindən ESİ üzrə mühüm institusional addımlar atılmışdır. Bu çərçivədə “Rabitəbank” ASC-nin ESİ siyasəti hazırlanaraq təsdiq edilmiş, ESİ risklərinin idarə edilməsi qaydası formalaşdırılmış, ESİ prinsipləri Bankın ümumi risklərin idarə edilməsi çərçivəsinə və Risk İştahası Bəyannaməsinə inteqrasiya olunmuşdur. Eyni zamanda, ESİ meyarlarının kredit siyasətinə daxil edilməsi ilə kreditləşmə prosesində yalnız maliyyə göstəricilərinin deyil, həmçinin ekoloji, sosial və idarəetmə risklərinin də nəzərə alınması təmin edilmişdir.



Hesabat haqqında

Bu hesabat 2025-ci il üzrə iqtisadi, ekoloji, sosial və korporativ idarəetmə (ESİ) fəaliyyətini təqdim edir. Bu hesabatda təkcə dayanıqlılığımız vurğulanmır, eyni zamanda, 1 yanvar 2025-ci il tarixindən 31 dekabr 2025-ci il tarixinədək olan qeyri-maliyyə nailiyyətlərimizi göstərir. Hesabatın əhatə dairəsi baxımından maliyyə, o cümlədən depozit, kredit portfeli ilə bağlı göstəricilər, ümumən "Rabitəbank" ASC-nin Maliyyə Qrupunun (törəmə müəssisələr də daxil olmaqla) fəaliyyətini əhatə edir. Birlik dayanıqlılıq üzrə fəaliyyətini müntəzəm və şəffaf şəkildə illik əsasda təqdim edir. 2025-ci il hesabatı Birliyin dayanıqlılıq siyasətləri, mühüm (material) mövzuları və ətraf mühitə və sosial təsirlərin idarə olunması ilə bağlı tətbiqləri üçün hərtərəfli çərçivə təqdim edir.

Bu hesabatda açıqlanan maliyyə göstəriciləri Beynalxalq Maliyyə Hesabatları Standartlarına uyğundur. Bəzi əlavə iqtisadi açıqlamalar Bankın daxili sənədlərindən götürülərək hesabatda istifadə edilmişdir. Hesabat ekoloji cəhətdən məsuliyyətli yanaşma ilə hazırlanmış və elektron formatda dərc edilmişdir.

Performans açıqlamaları müvafiq GRI göstəricilərinə uyğun şəkildə təqdim edilmişdir. 2025-ci il Hesabatı həmçinin Birliyin dayanıqlılıq yanaşması çərçivəsində həyata keçirilən təcrübələri, **Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM)** ilə uyğunluğunu və il ərzində əldə olunan irəliləyişləri əhatə edir. Hesabatda yer alan məlumatlar daxili qeydlər, ekoloji performansın monitorinq sistemləri, maraqlı tərəf rəyləri və müvafiq daxili bölmələr tərəfindən təqdim olunmuş məlumatlar əsasında toplanmışdır.



Rabitəbank haqqında

Ümumi məlumat

1993-cü ildə fəaliyyətə başlayan Rabitəbank, tezliklə iqtisadiyyatın müxtəlif sahələrini əhatə etməklə öz fəaliyyət dairəsini genişləndirmiş və universal banka çevrilmişdir. Hazırda Rabitəbankın müştəriləri ticarət, istehsalat, tikinti, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və başqa sahələri təmsil edən müəssisələrdir. Eyni zamanda, bank fiziki şəxslərə də bütün növ maliyyə xidmətləri göstərir.

Fəaliyyət göstərdiyi 32 il ərzində Rabitəbank ölkənin iri bankları arasında mövqeyini qoruyub saxlamaqla yanaşı, 31 xidmət şəbəkəsini yaradaraq Sumqayıt, Quba, Qusar, Xaçmaz, Lənkəran, Gəncə, Şəmkir, Şirvan, Şəki, Naxçıvan, Şamaxı, Kürdəmir, Ağsu, Tovuz, Bərdə, Xankəndi, Masallı və Ağcabədi daxil olmaqla ölkənin 18 regionunda təmsil olunmuşdur. Beynəlxalq maliyyə institutları ilə işgüzar əməkdaşlıq və böyük sayda müştəriləri bankın gələcəkdə də uğurlu inkişafı üçün möhkəm bünövrə yaratmışdır.

Tam adı:
“Rabitəbank” Açıq Səhmdar Cəmiyyəti

Bankın lisenziyası:
“Rabitəbank” ASC Azərbaycan Respublikası Mərkəzi Bankının 30.06.1993 tarixli, 136 saylı lisenziyası əsasında fəaliyyət göstərir.

Bankın yaranma tarixi:
30 iyun 1993-cü il

Vebsayt:
www.rabitabank.com

Qeydiyyat ünvanı:
Füzuli küçəsi 71, AZ1014, Bakı, Azərbaycan

Yeni konseptli Naxçıvan filialımızın açılışını etdik

Regionlarda maliyyə dayanıqlığının güclənməsi, sahibkarlığın inkişafı və müştəri məmnuniyyətinin artırılması “Rabitəbank” ASC-nin fəaliyyət strategiyasının əsas istiqamətlərindəndir.

Bu məqsədlə həyata keçirilən növbəti addım kimi, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 3/13 ünvanında yerləşən filialının yeni konsepsiya ilə istifadəyə verilməsi olub. Filialın yeni konsepsiyasında xidmət sahələri yenilənib və innovativ texnoloji imkanlar tətbiq olunub. Müştərilərə daha rahat və sürətli xidmət göstərmək məqsədilə filialda həm fərdi, həm də korporativ müştərilər üçün rəqəmsal həllər, ödəniş sistemləri və kredit məhsulları üzrə geniş imkanlar yaradılıb.



Qarabağda ilk filialımız açıldı

Azərbaycanın tarixi zəfərindən sonra ölkəmizin sosial-iqtisadi inkişaf xəritəsində yeni bir səhifə açılıb. Bu tarixi dönüş nöqtəsinin 5-ci ildönümündə “Rabitəbank” ASC Xankəndidə yeni filialını istifadəyə verərək regionun biznes ekosisteminin inkişafına daha bir mühüm töhfə vermişdir.

Babək filialımız istifadəyə verildi

Rabitəbank müştərilərinə daha əlçatan olmaq və paytaxt üzrə bank xidmətlərinə olan tələbatı daha operativ şəkildə qarşılamaq məqsədilə filial şəbəkəsini genişləndirməyə davam edir. Bank bu istiqamətdə növbəti addımını ataraq Bakı şəhəri, Nizami rayonu Babək prospekti 38A ünvanında yeni filialını istifadəyə verib.



Tovuz filialımız istifadəyə verildi

“Rahat bankçılıq” şüarına sadiq qalan Rabitəbank, müştəri məmnuniyyətini ön planda saxlayaraq ölkə üzrə filial şəbəkəsini genişləndirməyə davam edir. Bankın bu istiqamətdə növbəti addımı Tovuz şəhərində yeni filialın açılması olub.

Bankın ölkə üzrə sayca 28-ci filialı olan Tovuz filialının açılış mərasimi keçirilib. Yeni filial Tovuz şəhəri, Sabir küçəsi 40 ünvanında yerləşir və müasir dizayn konsepsiyası əsasında tam təmir edilərək istifadəyə verilib.

Bərdədə filialımız fəaliyyətə başladı

Rabitəbank, müştərilərinə daha yaxın olmaq və onlara yüksək səviyyəli xidmət təqdim etmək məqsədilə ölkə üzrə filial şəbəkəsini genişləndirməkdə davam edir. Bu strategiyanın növbəti mərhələsi kimi bankın Bərdə şəhərində yeni filialı fəaliyyətə başlayıb.

Bankın ölkə üzrə sayca 29-cu filialı Bərdə şəhəri, Üzeyir Hacıbəyov küçəsində yerləşir. Bərdə filialında əhali və sahibkarlıq subyektləri üçün əmanətlər, kreditlər, kart məhsulları, valyuta əməliyyatları, kommunal ödənişlər və digər geniş spektrli bank xidmətləri təqdim olunur.

Tərəfdaşlar


Beynəlxalq biznes tərəfdaşları:


- Visa
- Mastercard
- Swift
- Western Union
- Avropada Yenidənqurma və İnkişaf Bankı (EBRD)
- Asiya İnkişaf Bankı (ADB)
- Qara Dəniz Ticarət və İnkişaf Bankı
- Beynəlxalq İslam Ticarət Maliyyələşdirmə Korporasiyası (ITFC)
- ECO Ticarət və İnkişaf Bankı
- Islamic Development Bank

Yerli biznes tərəfdaşları

- Azərbaycan Sahibkarlar Konfederasiyası
- Sahibkarlığın İnkişaf Fondu
- Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu
- Azərbaycan Kredit Bürosu
- Əmanətlərin Sığortalanması Fondu
- İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu

Bankın 31.12.2025-ci il sonuna göstəriciləri:

FİLİALLAR	ƏHATƏ DAİRƏSİ	
	Ümumi sayı	31
	Bakı və Abşeron	13
	Regionlar	18

ATM-lər	ƏHATƏ DAİRƏSİ	
	Ümumi sayı	78
	Bakı və Abşeron	59
	Regionlar	19

31.12.2025-ci ilin sonuna olan maliyyə göstəriciləri:

Xalis mənfəət
11,3 mln. AZN

Aktivlər
1,4 mlrd. AZN

Kredit portfeli
941,3 mln. AZN

Biznes kreditləri
418,2 mln. AZN

İstehlak kreditləri
337,9 mln. AZN

İpoteka kreditləri
185,1 mln. AZN

Depozitlər
878,3 mln. AZN

Fiziki şəxlərin depozitləri
631,5 mln. AZN

Hüquqi şəxslərin depozitləri
246,8 mln. AZN

Faiz gəlirləri
137,6 mln. AZN

İdarəetmə strukturu

İdarəetmə strukturu

Müşahidə Şurası

“Rabitəbank” ASC-nin Müşahidə Şurası Bankın korporativ idarəetmə sistemində mühüm yer tutan ali nəzarət və strateji rəhbərlik orqanı, Bankın fəaliyyətinin qanunvericiliyə, prudensial tələblərə və korporativ idarəetmə prinsiplərinə uyğun şəkildə təşkil olunmasına nəzarət edən əsas idarəetmə institutudur. Müşahidə Şurasının əsas funksiyası səhmdarların adından Banka ümumi rəhbərliyi və onun fəaliyyətinə nəzarəti həyata keçirməkdir.

Şuranın fəaliyyət istiqamətləri geniş və çoxşaxəli olmaqla, əsas istiqamətlərini və inkişaf strategiyasını müəyyənləşdirmək, biznes planı və büdcəni təsdiq etmək, korporativ idarəetmə sistemini təmin etmək və Bankın təşkilati strukturunu formalaşdırmaq əhatə edir. Bununla yanaşı, Şura Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyən edir, faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və risklərin idarə olunması ilə bağlı siyasətlərin həyata keçirilməsinə nəzarət edir.

Eyni zamanda Bankda risklərin düzgün qiymətləndirilməsi, audit proseslərinin səmərəli təşkili, qanunvericiliyə uyğun fəaliyyəti və korporativ idarəetmə standartlarının təmin edilməsi məqsədilə korporativ idarəetmə, risklərin idarə edilməsi , audit komitələri və digər müvafiq komitələr fəaliyyət göstərir.

Ümumilikdə, “Rabitəbank” ASC-nin Müşahidə Şurası Bankın strateji inkişafının müəyyənləşdirilməsi, korporativ idarəetmənin gücləndirilməsi, risklərin idarə olunması, daxili nəzarət sisteminin təşkili və səhmdarların maraqlarının qorunması üzrə əsas idarəetmə orqanı kimi fəaliyyət göstərir.

Müşahidə Şurası tərkibi



Nuriyev Zakir Əlibala oğlu
Müşahidə Şurasının sədri

Təhsili

Azərbaycan Dövlət İqtisad Universiteti, Mühasibat uçotu fakültəsi, İqtisadçı ixtisası üzrə bakalavr

Digər fəaliyyətləri

“Azərbaycan Banklar Assosiasiyası”nın prezidenti, DGK yanında İctimai Şuranın sədri



Əliyev Rauf Zeynal oğlu
Müşahidə Şurasının üzvü

Təhsili

Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə fakültəsi üzrə bakalavr

Azərbaycan Dövlət İqtisad Universiteti, Biznesin idarə edilməsi fakültəsi üzrə magistr

Digər fəaliyyətləri

“Z-Commerz” MMC və “Brillaince İAŞƏ” MMC-də Təsisçi,
“Mega Sığorta” ASC-nin Səhmdarı



Abasov Rəşad Səmənder oğlu

Müşahidə Şurası sədrinin müavini,
Audit Komitəsinin sədri

Təhsili

Azərbaycan Dövlət Neft Akademiyası, “Mühəndis iqtisadiyyatı və idarə etməsi” fakültəsi üzrə bakalavr

Azərbaycan Dövlət İqtisad Universiteti, “Maliyyə və Kredit” ixtisası üzrə magistr



Əliyev Rəhman Mərdan oğlu

Müşahidə Şurasının üzvü,
Korporativ İdarəetmə Komitəsinin sədri

Təhsili

Azərbaycan Dövlət İqtisad Universiteti, Mühasibat uçotu və audit ixtisası üzrə bakalavr və magistr



Baxşəliyev Zaur Müşviq oğlu

Müşahidə Şurasının üzvü, Risk komitəsinin sədri

Təhsili

Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə-kredit fakültəsi üzrə bakalavr

Azərbaycan Dövlət İqtisad Universiteti, Biznesin idarə edilməsi üzrə magistr

Digər fəaliyyətləri

ADY Ekspress” MMC-nin Daxili audit xidmətinin rəhbəri

İdarə Heyəti

“Rabitəbank” ASC-nin İdarə Heyəti Bankın korporativ idarəetmə sistemində kollegial icraedici orqan kimi mühüm yer tutan Bankın cari fəaliyyətinin idarə edilməsinə və gündəlik əməliyyat proseslərinin səmərəli təşkilinə məsul olan əsas idarəetmə institutudur. İdarə Heyəti öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarına, Bankın Nizamnaməsinə və müvafiq daxili əsasnamələrə uyğun şəkildə həyata keçirir.

İdarə Heyətinin əsas funksiyası Bankın cari fəaliyyətinə rəhbərlik etmək, Müşahidə Şurası və Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilmiş qərarların icrasını təmin etmək, eləcə də Bankın strateji məqsədlərinin gündəlik idarəetmə proseslərinə effektiv şəkildə inteqrasiyasını həyata keçirməkdir.

İdarə Heyətinin fəaliyyət istiqamətləri geniş və çoxşaxəli olmaqla, Bankın strateji planının hazırlanması və icrasının təmin edilməsini, maliyyə planlaşdırılması sisteminin qurulmasını, illik büdcənin icra vəziyyətinin təhlilini, kredit və depozitlər üzrə faiz dərəcələrinin bazar şərtlərinə uyğun müəyyənləşdirilməsini, yeni bank məhsullarının tətbiqini və Bankın gündəlik əməliyyatlarının idarə edilməsini əhatə edir. Bununla yanaşı, İdarə Heyəti Bankın kredit və investisiya siyasətlərinin yerinə yetirilməsini təmin edir, Bankın kapitalının qorunması, gəlirliliyinin artırılması, likvidliyin saxlanılması, səhmdarların və əmanətçilərin mənafelərinin müdafiəsi üzrə məsuliyyət daşıyır.

Ümumilikdə, “Rabitəbank” ASC-nin İdarə Heyəti Bankın cari fəaliyyətinin idarə olunması, strateji planların icrası, maliyyə dayanıqlığının qorunması, risklərin idarə edilməsi, yeni məhsul və xidmətlərin tətbiqi, həmçinin səhmdar və müştəri maraqlarının təmin edilməsi üzrə əsas icraedici idarəetmə orqanı kimi fəaliyyət göstərir. İdarə Heyətinin fəaliyyəti Bankın dayanıqlı inkişafına, əməliyyat səmərəliliyinin artırılmasına və maliyyə bazarında etibarlı mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

İdarə Heyətinin tərkibi



Hüseynov Aydın Hüseyn oğlu
İdarə Heyətinin sədri

Təhsili

Egey Universiteti, Tətbiqi Riyaziyyat ixtisası üzrə bakalavr

Ankara Universiteti, Tətbiqi Riyaziyyat ixtisası üzrə magistr və doktorantura

Bakı Dövlət Universiteti, Riyazi İqtisadiyyat Kafedrasında Elmlər Doktoru



Gültekin Orhan Rifat oğlu
İdarə Heyəti sədrinin 1-ci müavini, İdarə Heyətinin üzvü (Baş Satış İnzibatçısı)

Təhsili

Hacettepe Universiteti, Menecment ixtisası üzrə bakalavr



Nəsibov Ramil Hüseyn oğlu
İdarə Heyəti sədrinin müavini

Təhsili

Gürcüstan Texniki Universiteti “İnformasiya Texnologiyaları və İdarəetmə” fakültəsi



Rzayev Samir Tofiq oğlu
İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü (Baş Maliyyə inzibatçısı)

Təhsili

Azərbaycan Dövlət İqtisad Universiteti, Mühasibat uçotu fakültəsi




Novruzov Natiq İdris oğlu
İdarə Heyəti sədrinin müavini, İdarə Heyətinin üzvü (Baş Risk inzibatçısı)

Təhsili


Azərbaycan Dövlət İqtisad Universiteti, Mühasibat uçotu və audit ixtisası üzrə bakalavr və magistr

Nizamnamə kapitalının strukturu

Təsisçinin, iştirakçının (səhmdarın) adı	Səhmdar (nizamnamə) kapitalında xüsusi çəkisi
Əliyev R.Z.	39%
Abasova V.M.	35%
Nuriyev Z.Ə.	11%
Nuriyeva D.N.	9%
Xasiyev A.T.	6%



Strateji plan, Missiya, Məqsəd və Dəyərlər



Strateji Baxış

Ölkənin innovativ banklarından biri olaraq bütün növ maliyyə xidmətlərini göstərən, peşəkar komandaya malik, etibarlı, dayanıqlı, rəqəmsal və universal bank!



Missiya bəyanatı

Əhaliyə və bizneslərə etibarlı, keyfiyyətli, yeni texnologiyalara əsaslanan, rahat və əlverişli maliyyə xidmətləri və həlləri təqdim edirik.

Əsas fəaliyyət növləri

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi
- Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi
- Fiziki və hüquqi şəxslərin hesablarının açılması və aparılması;
- Hesablaşma-kassa xidmətlərinin göstərilməsi
- Ödəniş vasitələrinin buraxılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək;
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və akkreditivlərin açılması;
- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi

Həyata keçiriləcək fəaliyyət növləri və İnkişaf Prioritetlər

Proritetlərimiz

- Əhalinin maliyyə inkluzivliyinin artırılmasına töhfə vermək;
- Əlverişli və məsuliyyətli Bank xidmətləri təklifini artırmaq
- Fəaliyyətin səmərəliliyini artırılmaq və xərclərin optimallaşdırılmasını davam etdirmək
- Korporativ idarəetməni inkişaf etdirilmək və Şəffaflığı qorumaq;
- Risklərin idarəedilməsini gücləndirilmək və inkişaf etdirmək;
- Mənfəətliliyi və rentabelliyi artırılmaq

Strateji məqsəd və hədəflər

Bankın strateji məqsədləri:

- ☑ Rəqəmsal Transformasiya
- ☑ Müştəri Mərkəzli (fokuslu) Yanaşma və Müştəri Təcrübəsində Mükəmməllik
- ☑ Mikro, Kiçik, Orta Biznes Müştərilərinə Dəstək
- ☑ Avtomatlaşma, Optimallaşma və Səmərililik
- ☑ Yenilikçi Məhsulların və Satışların inkişafı
- ☑ İnsan Kapitalına Yatırım və Kadr Potensialının İnkişaf
- ☑ ESİ və Dayanıqlı İnkişaf
- ☑ Bazar mövqeyinin gücləndirilməsi, Risklərin İdarə Edilməsi və Şəffaflığın təmin edilməsi
- ☑ Yeni Bazarlar və İnvestisiya
- ☑ Bankın Brendinin və İmicinin Gücləndirilməsi



Strateji məqsəd və hədəflər

1. Rəqəmsal Transformasiya:

Hədəflər	Gözləntilər
1.1. Rəqəmsal bankçılıq platformalarının inkişafı:	Məhsulların satışının və xidmətlərin Mobil və İnternet Bankçılığa transformasiyasının sürətləndirilməsi
	Rəqəmsal maliyyə həllərinin inkişafı və innovasiyaların təşviqi ilə maliyyə xidmətlərinə əlçatanlığın artırılması
	Rəqəmsal və innovativ həllərin tətbiqinin sürətləndirilməsi ilə bankın fəaliyyətinin effektivliyinin artırılması
	Mobil və internet bankçılıq xidmətlərinin sadələşdirilməsi və daha da funksional olması
	Açıq bankçılığın tətbiqinin sürətləndirilməsi
	Yeni rəqəmsal məhsullar üçün rəqəmsal infrastrukturun imkanlarının genişləndirilməsi
	Rəqəmsal ödəniş xidmətlərində səmərəliliyin təmin edilməsi
	Rəqəmsal müştəri identifikasiyası (e-KYC) və sənədləşmə proseslərinin avtomatlaşdırılması
1.2. Süni intellekt və data analitikası:	Müştəri davranışlarının təhlili və fərdiləşdirilmiş məhsul təklifləri üçün böyük məlumat analitikası tətbiq etmək
	Kredit qərarlarının avtomatlaşdırılması üçün maşın öyrənməsi modellərinin istifadəsi.
	Əməliyyat və müştəri məlumatlarının təhlili vasitəsilə qərarvermə sürətini artırmaq.
1.3. Kiber təhlükəsizliyin artırılması:	Rəqəmsal infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün kibertəhlükəsizliyin gücləndirilməsi
	Bankda informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsi
	Təhlükəsizlik sistemlərinin süni intellekt əsaslı monitorinq ilə gücləndirilməsi
	Bank sistemlərinin rəqəmsal hücumlara qarşı qorunması və məlumat təhlükəsizliyi standartlarının tətbiqi

Strateji məqsəd və hədəflər

2. Müştəri Mərkəzli (fokuslu) Yanaşma və Müştəri Təcrübəsində Mükəmməllik

Hədəflər	Gözləntilər
2.1. Müştəri təcrübəsinin yaxşılaşdırılması:	Müştəri məmnuniyyətinin davamlı ölçülməsi və inkişaf etdirilməsi (NPS və ya CSAT).
	"Omni-kanal" yanaşması ilə müştərilərə hər bir platformada yüksək keyfiyyətli xidmət təqdim etmək.
	Müştərinin bankla ilk təmasından xidmətin göstərilməsinə qədər olan bütün proseslərdə məmnuniyyəti artırmaq.
2.2. Əlçatanlıq:	Regionlara daha çox fokuslanma
	Region müştəriləri üçün xüsusi xidmət paketlərinin hazırlanması.
	Regionlarda mikro və KOB kreditlərinin sürətli təsdiqləmə və xidmət proseslərinin təşkili.
	Fiziki filial şəbəkəsinin optimallaşdırılması və daha çox məsafədən xidmətlərin təşkili.
	Filialların iş şəratinin yaxşılaşdırılması və maddi texniki bazanın təkmilləşdirilməsi
2.3. Müştəri sadiqliyi proqramları:	Bal toplama və mükafatlandırma sistemlərini tətbiq edərək müştəri sadiqliyini artırmaq.
2.4. Fərdiləşdirilmiş təkliflər	Müştəri seqmentlərinə görə xüsusi məhsul və xidmətlər təqdim etmək (gənclər, yaşlılar, qadın sahibkarlar və s.).
	Müştəri analizlərinə əsaslanaraq fərdi ehtiyaclara uyğun məhsullar təqdim etmək.
2.5. Premium xidmətlər:	Yüksək gəlirli fərdi müştərilər üçün "Private Banking" xidmətləri təşkil etmək
	Yüksək gəlirli müştərilər üçün fərdi əlaqə menecerləri təqdim etmək

Strateji məqsəd və hədəflər

3. Mikro, Kiçik, Orta Biznes Müştərilərinə Dəstək

Hədəflər	Gözləntilər
3.1. Fərdi təsərrüfatların və Mikro biznesə dəstək:	Mikro-Aqro təsərrüfatların maliyyələşdirilməsinin genişləndirilməsi
	Sahibkarlığın inkişafına dəstək olan resursalardan istifadəni genişləndirmək
	Kənd təsərrüfatı nazirliyi ilə birgə Fərdi təsərrüfatların inkişafına dəstək olan layihələr həyata keçirmək
3.2. Maliyyə Təhsilinin İnkişafı:	Müştərilərə maliyyə savadlılığı artıran təlimlər keçmək.
	Müştərilərə bazar strategiyaları, maliyyə planlaşdırması və müştəri əlaqələrinin idarə edilməsi üzrə dəstək vermək
	Vergi, Gömrük sənədləşdirilməsi və mühasibat uçotu xidmətlərinin təşkili üzrə təlimlər vermə
3.3. KOB müştərilərinə fokus:	KOB-lar üçün innovativ kredit məhsulları və maliyyə həlləri təklif etmək.
	KOB müştərilərini 360 dərəcə məhsullarla təmin etmək (kredit, depozit, POS terminallar, rəqəmsal həllər).
3.4. Korporativ müştərilər üçün xidmətlər:	Korporativ müştərilərə ehtiyaclarına uyğun fərdi yanaşma təqdim etmək.
	Xarici ticarətin maliyyələşdirilməsi üzrə yeni məhsullar hazırlamaq və mövcudları inkişaf etdirmək

Strateji məqsəd və hədəflər

4. Avtomatlaşma, Optimallaşma və Səmərililik

Hədəflər	Gözləntilər
4.1. Daxili proseslərin avtomatlaşdırılması:	Müştəri müraciətləri, kredit təsdiqləməsi və sənədləşmə proseslərinin avtomatlaşdırılması.
	Kreditlərin təsdiqi, müştəri identifikasiyası, əməliyyatların emalı kimi sahələrin avtomatlaşdırılması.
	Kağız daşıyıcılarındakı məlumatların minimumlaşdırılması və elektronlaşdırılması
	İşçi heyətinin rutin tapşırıqlardan azad edilməsi üçün robot prosesi avtomatlaşdırmasının (RPA) tətbiqi.
	Elektron imza və rəqəmsal müqavilə sistemləri tətbiq edərək vaxt və xərcləri azaltmaq.
4.2. Xərclərin optimallaşdırılması:	Resurs istifadəsinin effektivliyini artırmaq və əməliyyat xərclərini azaltmaq

5. Yenilikçi Məhsulların və satışların inkişafı

Hədəflər	Gözləntilər
5.1. Alternativ investisiya məhsulları:	Müştərilərə fərqli investisiya həlləri təklif etmək (məsələn, fondlar, ETF-lər, kriptovalyutalar).
5.2. Yeni məhsulların yaradılması:	"Yaşıl kreditlər" və ekoloji layihələrin maliyyələşdirilməsi.
	Alternativ investisiya və yığım məhsullarının təqdim olunması.
5.3. Satış və Çarpaz satış strategiyaları:	Cari müştərilərə əlavə xidmətlər təklif etməklə bankın gəlir mənbələrini artırmaq

Strateji məqsəd və hədəflər

6. İnsan Kapitalına Yatırım və Kadr Potensialının İnkişafı

Hədəflər	Gözləntilər
6.1 Kadrların bacarıqlarının artırılması	Top menecerlər və orta səviyyəli idarəçilər üçün liderlik, strateji planlaşdırma və texnoloji bacarıqlara dair təlimlər.
	Bank daxili akademiya yaradaraq işçi heyətin bilik və bacarıqlarını artırmaq.
	Peşəkarlığın yüksəldilməsi və ixtisaslaşmanın təmin edilməsi
6.2 İşçi məmnuniyyəti və sadiqliyi:	İş mühitinin yaxşılaşdırılması və performans əsaslı motivasiya proqramları tətbiq etmək.
	İşçi məmnuniyyətini daim yuxarı həddə saxlamaq
6.3 Performans əsaslı stimullaşdırma:	KPI-lərə uyğun motivasiya sisteminin qurulması və əməkdaşların səmərəliliyini artırmaq.

7. ESG və Dayanıqlı İnkişaf

Hədəflər	Gözləntilər
7.1. Ekoloji maliyyə həlləri və Ekoloji layihələrə dəstək	"Yaşıl" layihələr və alternativ enerji mənbələrinin maliyyələşdirilməsi.
	"Yaşıl bankçılıq" təşəbbüsləri ilə ekoloji cəhətdən dayanıqlı layihələrin maliyyələşdirilməsi.
7.2. Sosial məsuliyyət proqramları və Sosial layihələrə dəstək:	Təhsil, sağlamlıq və icma dəstəyi ilə bağlı təşəbbüslər həyata keçirmək.
	Cəmiyyətə faydalı olan sosial layihələrin sponsorluğu və dəstəyi.
7.3. Korporativ idarəetmə standartları:	Risk əsaslı proporsional tənzimləmə və nəzarətin tələblərinə uyğunlaşma
	Bankda şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi və gücləndirilməsi.

Strateji məqsəd və hədəflər

6. İnsan Kapitalına Yatırım və Kadr Potensialının İnkişafı

Hədəflər	Gözləntilər
6.1 Kadrların bacarıqlarının artırılması	Top menecerlər və orta səviyyəli idarəçilər üçün liderlik, strateji planlaşdırma və texnoloji bacarıqlara dair təlimlər.
	Bank daxili akademiya yaradaraq işçi heyətin bilik və bacarıqlarını artırmaq.
	Peşəkarlığın yüksəldilməsi və ixtisaslaşmanın təmin edilməsi
6.2 İşçi məmnuniyyəti və sadiqliyi:	İş mühitinin yaxşılaşdırılması və performans əsaslı motivasiya proqramları tətbiq etmək.
	İşçi məmnuniyyətini daim yuxarı həddə saxlamaq
6.3 Performans əsaslı stimullaşdırma:	KPI-lərə uyğun motivasiya sisteminin qurulması və əməkdaşların səmərəliliyini artırmaq.

7. ESG və Dayanıqlı İnkişaf

Hədəflər	Gözləntilər
7.1. Ekoloji maliyyə həlləri və Ekoloji layihələrə dəstək	"Yaşıl" layihələr və alternativ enerji mənbələrinin maliyyələşdirilməsi.
	"Yaşıl bankçılıq" təşəbbüsləri ilə ekoloji cəhətdən dayanıqlı layihələrin maliyyələşdirilməsi.
7.2. Sosial məsuliyyət proqramları və Sosial layihələrə dəstək:	Təhsil, sağlamlıq və icma dəstəyi ilə bağlı təşəbbüslər həyata keçirmək.
	Cəmiyyətə faydalı olan sosial layihələrin sponsorluğu və dəstəyi.
7.3. Korporativ idarəetmə standartları:	Risk əsaslı proporsional tənzimləmə və nəzarətin tələblərinə uyğunlaşma
	Bankda şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi və gücləndirilməsi.

Strateji məqsəd və hədəflər

8. Bazar mövqeyinin gücləndirilməsi, Risklərin İdarə Edilməsi və Şəffaflığın təmin edilməsi

Hədəflər	Gözləntilər
8.1. Risk idarəetmə strategiyası:	Risk modellərinin optimallaşdırılması və proaktiv risklərin idarə edilməsi
	Qeyri işlək aktivlərin azaldılması və aktivlərin səmərəliliyinin artırılması
	Balansda olan problemli kreditlərin payının azaldılması
	Balansdan silinmiş kreditlərin bərpasını artırmaq
	Maliyyə Sabitliyi və Kapital Yeterliliyinin qorunması
8.2. Şəffaflıq və hesabatlılıq:	Korporativ idarəetmədə yüksək standartlara əməl etmək və maliyyə hesabatlarını beynəlxalq standartlara uyğunlaşdırmaq.
	Əməliyyatların izlənməsi və optimallaşdırılması üçün ERP sistemlərinin tam tətbiqi.
8.3.Bazar mövqeyinin gücləndirilməsi:	Rəqabət üstünlüyünün davamlı artımına nail olmaq
	Ümumi bazar payının və artırılmasının dinamik inkişafını təmin etmək
	Xərclər və Effektivlik arasında optimal bərabərliyin qurulması

Strateji məqsəd və hədəflər

9. Yeni Bazarlar və İnvestisiya

Hədəflər	Gözləntilər
Region və xarici bazarlara çıxış:	Bankın fəaliyyətinin yeni regionlarda genişləndirilməsi.
	Beynəlxalq maliyyə qurumları ilə əlaqələri genişləndirmək
9.2. Yeni investisiyalar:	Qiymətli kağızlar buraxaraq alternativ maliyyə mənbələri cəlb etmək.
	İstiqraz və səhm ticarətinin təşviq edilməsi və dəstəklənməsi
	Sığorta məhsullarında üzrə agent fəaliyyətini inkişaf etdirmək

10. Bankın Brendinin və İmicinin Gücləndirilməsi

Hədəflər	Gözləntilər
10.1. Brendin dəyərləndirilməsi:	"Etibarlı və innovativ bank" imicini gücləndirmək.
	Bankın beynəlxalq reytinq agentlikləri tərəfindən tanınmasını təmin etmək.
10.2. Marketinq və PR strategiyaları:	Müasir marketinq kanalları ilə brendin daha geniş tanınmasını təmin etmək.
	Sosial media və digər rəqəmsal kanallarda müştəri iştirakını artırmaq (CTR, engagement metrics).
	Mənfi PR hallarında sürətli və səmərəli reaksiyalar vermək

Mükafatlar

Mükafatlar

İllər	Nominasiyalar	Mükafatlandıran
2022	▪ “Korporativ sosial məsuliyyət” ▪ “Ən fəal maliyyə savadlılığı dəstəkçisi” ▪ “Ən fəal təhsil dəstəkçisi” ▪ “Elektron bankçılıq üzrə layihələr” ▪ “Bank-maliyyə sahəsində araşdırmalar və yazılarla çıxış edən bank nümayəndəsi”	**Azərbaycan Banklar Assosiasiyası**
2023	▪ Maliyyə, bankçılıq və fintech ▪ Tap2Phone Booosting local SME’s	**“NETTY 2023” Azərbaycan Milli İnternet Mükafatı**
	“Kənd təsərrüfatında Aqrar maliyyələşmə sahəsində yeni innovativ məhsullar təqdim edən bank"	**Aqrar Kredit Və İnkişaf Agentliyi(AKİA)**
	“The leadership in Premium Segment with VISA Infinite”	**Visa**
	▪ Korporativ Sosial Məsuliyyət ▪ Maliyyə savadlılığı dəstəkçisi ▪ Təhsil dəstəkçisi ▪ Rəqəmsal ödənişlərdə təhlükəsizliyə dair maarifləndirmə layihələri ▪ Özünüməşğulluq proqramında iştirak	**Azərbaycan Banklar Assosiasiyası**
	▪ Maliyyə, bankçılıq və fintech ▪ Tap2Phone Booosting local SME’s	**“NETTY 2023” Azərbaycan Milli İnternet Mükafatı**
2024	▪ “Korporativ sosial məsuliyyət” ▪ “Kiçik və Orta Biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü” ▪ “Təhsil dəstəkçisi” ▪ “Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi” ▪ “Dayanıqlı bankçılıq üzrə layihələr (ESG)”	**Azərbaycan Banklar Assosiasiyası**



İllər	Nominasiyalar	Mükafatlandıran
2024	"Leading Partner Bank in Azerbaijan"	**Asiya İnkişaf Bankı** Trade and Supply Chain Awards 2024
	Tap2Phone Boosting local SME's	**Visa**
2025	▪ "Launch of AFT Tokenization" ▪ "Largest Share of Active VISA Infinite" ▪ "Visa APIs Integration"	**Visa**
	"Leading Partner Bank in Azerbaijan"	**Asiya İnkişaf Bankı** Trade and Supply Chain Awards 2024
	▪ "Korporativ sosial məsuliyyət" ▪ "Təhsil dəstəkçisi" ▪ "Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi" ▪ "Beynəlxalq əməkdaşlığın inkişafında fərqlənən bank"	**Azərbaycan Banklar Assosiasiyası**

Törəmə Şirkətlər

“Capital Partners İnvestisiya Şirkəti” QSC

“Capital Partners İnvestisiya Şirkəti” QSC 22 iyun 2022-ci ildə əsas və yardımçı investisiya xidmətlərinin göstərilməsi üçün müddətsiz lisenziya əldə etmişdir. Bakı Fond Birjası və Milli DepozitMərkəzinin üzvüdür, Rabitəbank hesablaşma agentidir.

Capital Partners yerli və xarici bazarlarda peşəkar investisiya xidmətlərini təqdim edir. İnvestisiya xidmətləri Mərkəzi Bankın attestasiyası ilə sertifikatlara sahib olan, Bakı Fond Birjasının peşəkar treyderlər tərəfindən həyata keçirilir.

Capital Partners Investisiya Şirkəti “Rabitəbank” ASC-nin törəmə şirkətidir, kifayət qədər müştəri bazasına malikdir. Peşəkar komandası ilə Capital Partners İnvestisiya Şirkəti istər yerli bazarda kapital bazarına daxil olmaq istəyən investorlar, istərsə də hüquqi və fiziki şəxs olan bütün müştərilər üçün etibarlı tərəfdaşdır.

Missiyamız

Ən yüksək peşəkar standartları tətbiq edərək investisiya təcrübəsinə və korporativ dəyərlərə əsaslanan uğurlu bir investisiya şirkəti olmaq

Strategiya

Təcrübə və biliklərimizin gücünə əsaslanaraq investorlara sağlam investisiya məsləhətləri vermək, maliyyə sektorunun ən son trendlərindən xəbərdar olmaq

Baxış

Etibarlı və yüksək peşəkarlığa malik komanda ilə kapital bazarlarında bir nömrəli seçimə çevrilməkdir.

Əsas investisiya xidmətləri:

- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi
- Fərdi investorların portfelinin idarə edilməsi
- İnvestisiya məsləhətlərinin verilməsi
- Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi
- Mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması
- Marja ticarəti

Bank sektorunun analizi

Azərbaycan Bank sektorunun analizi

Əsas makroiqtisadi göstəricilər

Göstəricilər	2021	2022	2023	2024	2025
Nominal ÜDM, mln.AZN Mənbə: İqtisadiyyat nazirliyi	93,2	133,9	123,1	126,3	129,094
ÜDM-in real artım tempi % ilə Mənbə: İqtisadiyyat nazirliyi	5,6	4,7	1,4	4,1	1,4
Qeyri-neft ÜDM (%) Mənbə: Mərkəzi Bank	54,9	45,9	56,4	59,6	63
Orta illik inflyasiya dərəcəsi % ilə Mənbə: İqtisadiyyat nazirliyi	6,7	13,9	8,8	2,2	5,6




Hesabat dövründə ölkə iqtisadiyyatı üzrə **nominal ÜDM (mln. AZN)** göstəricilərində artım müşahidə edilmişdir (Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi). Nominal ÜDM-in yüksəlməsi iqtisadi fəallığın genişlənməsini, investisiya axınının və istehlak xərclərinin artmasını əks etdirir. Bu dinamika maliyyə sektorunda kreditləşmə, korporativ maliyyələşmə və pərakəndə bank xidmətlərinə olan tələbin artmasına müsbət təsir göstərmişdir.

Eyni zamanda, **ÜDM-in real artım tempi (%)** iqtisadi artımın inflyasiya təsirindən təmizlənmiş göstəricisi olaraq davamlı iqtisadi inkişafın əsas indikatorudur. Real artım tempinin müsbət zonada qalması makroiqtisadi sabitliyin qorunduğunu və biznes mühitinin dayanıqlılığını göstərir. Bu, Bank üçün kredit portfelinin keyfiyyətinin və risk göstəricilərinin idarə olunması baxımından əlverişli şərait formalaşdırmışdır.


Hesabat dövründə **qeyri-neft ÜDM-in payı (%)** üzrə göstəricilər iqtisadiyyatın şaxələndirilməsi istiqamətində irəliləyişləri əks etdirmişdir (Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı). Qeyri-neft sektorunun artımı xüsusilə xidmətlər, kənd təsərrüfatı, tikinti və sənaye sahələrində genişlənmə ilə müşayiət olunmuşdur. Bu dinamika bank sektorunun strateji inkişaf prioritetləri ilə uyğunluq təşkil edir və real sektorun maliyyələşdirilməsinin genişləndirilməsi üçün əlavə imkanlar yaradır. Qeyri-neft sektorunun güclənməsi kredit portfelinin diversifikasiyasına, sektor risklərinin azaldılmasına və uzunmüddətli iqtisadi dayanıqlılığa töhfə verir.

2021	2022	2023	2024	2025


Depozitlər (maliyyə institutları istisna olmaqla), mlrd.AZN




Müştərilərə verilən kreditlər, mlrd.AZN




Bank aktivləri, mlrd.AZN



Kreditlərin aktivlərə nisbəti



Kreditlərin depozitlərə nisbəti



Hesabat dövründə **depozitlərin həcmi (maliyyə institutları istisna olmaqla, mlrd. AZN)** üzrə artım dinamikası müşahidə edilmişdir. Bu göstərici bank sisteminə ictimai etimadın gücləndiyini, əmanətçilərin maliyyə sabitliyinə inamının artdığını və likvidlik bazasının genişləndiyini göstərir. Depozit portfelinin artımı bankların kreditləşmə imkanlarını artırmaqla yanaşı, maliyyə sabitliyinin əsas dayaqlarından biri hesab olunur.

Eyni dövrdə **müştərilərə verilən kreditlərin həcmi (mlrd. AZN)** real sektorun maliyyələşdirilməsində bank sektorunun aktiv rolunu nümayiş etdirmişdir. Kredit portfelinin artımı iqtisadi aktivliyin genişlənməsi və biznes mühitinin canlanması ilə əlaqələndirilə bilər. Xüsusilə qeyri-neft sektoruna yönəlmiş kreditlər iqtisadi şaxələndirməyə töhfə vermişdir.

Bank aktivlərinin ümumi həcmi (mlrd. AZN) sektorun miqyasını və kapital bazasının genişlənməsini əks etdirir. Aktivlərin artımı maliyyə vasitəçiliyinin genişləndiyini və bank sektorunun iqtisadiyyatda rolunun gücləndiyini göstərir.



ESİ istiqamətində görülən işlər

ESİ üzrə görülən işlər

“Rabitəbank” ASC-nin ESİ siyasəti	Satınalma proseduruna ESi tələblərinin inteqrasiyası
Dayanıqlı Maliyyə üzrə yol xəritəsi (2025-2028)	Kredit qovluqlarında istifadə olunan məlumat xarakterli sənədlərin elektron arxivi yaradılmışdır
“Rabitəbank” ASC-nin ESİ üzrə fəaliyyət planının təsdiqi	İnsan Resursları, Maliyyə və Mühasibatlıq prosesinin təşkili üçün HR/Payroll modulunun Bank sisteminə inteqrasiyasına başlanmışdır
Ekoloji, Sosial və İdarətmə (ESi) risklərinin idarə edilməsi qaydası	Rüşvət və korrupsiyaya qarşı siyasətin hazırlanması
Risk İştahası Bəyannaməsinə ESİ ilə bağlı indikatorların inteqrasiyası	Karbon izi kalkulyatorunun tətbiqi
ESİ meyarlarının kredit siyasətinə inteqrasiyası	Bankdaxili sənədləşmə prosesi “Elektron Sənəd Dövriyyəsi” üzərindən icra olunmuşdur

“Rabitəbank” ASC-nin ESİ siyasəti

Bu siyasət Bankın ekoloji, sosial məsuliyyət və korporativ idarəetmə prinsiplərinə sadiqliyini ifadə edir. Siyasətin məqsədi, bankın ESİ prinsiplərini dəstəkləyən, davamlı iqtisadi inkişafı təmin edən sistemi qurmaqdan ibarətdir. Siyasətin əsas məqsədi, maraqlı tərəflər – müştərilər, investorlar, tənzimləyici orqan və cəmiyyət üçün uzunmüddətli dəyər yaratmaqdır.

Risk İştahası Bəyannaməsinə ESİ ilə bağlı indiqatorların əlavə olunması

Bu siyasət Bankın ekoloji, sosial məsuliyyət və korporativ idarəetmə prinsiplərinə sadiqliyini ifadə edir. Siyasətin məqsədi, bankın ESİ prinsiplərini dəstəkləyən, davamlı iqtisadi inkişafı təmin edən sistemi qurmaqdan ibarətdir. Siyasətin əsas məqsədi, maraqlı tərəflər – müştərilər, investorlar, tənzimləyici orqan və cəmiyyət üçün uzunmüddətli dəyər yaratmaqdır.

Ekoloji, Sosial və İdarətmə (ESİ) risklərinin idarə edilməsi qaydası

Bu siyasət Bankın ekoloji, sosial məsuliyyət və korporativ idarəetmə prinsiplərinə sadiqliyini ifadə edir. Siyasətin məqsədi, bankın ESİ prinsiplərini dəstəkləyən, davamlı iqtisadi inkişafı təmin edən sistemi qurmaqdan ibarətdir. Siyasətin əsas məqsədi, maraqlı tərəflər – müştərilər, investorlar, tənzimləyici orqan və cəmiyyət üçün uzunmüddətli dəyər yaratmaqdır.

“Rabitəbank” ASC-nin ESİ fəaliyyət planı

ESİ üzrə fəaliyyət planının hazırlanmasının əsas məqsədi təşkilatın fəaliyyətini dayanıqlı inkişaf prinsiplərinə uyğunlaşdırmaq və ekoloji, sosial və idarəetmə sahələrində riskləri və imkanları sistemli şəkildə idarə etməkdir.

ESİ meyarlarının kredit verilməsi prosesinə inteqrasiyası

ESİ meyarlarının kredit siyasətinə inteqrasiyasının əsas məqsədi, yalnız müştərinin maliyyə vəziyyətini deyil, həmçinin ekoloji, sosial və idarəetmə risklərini qiymətləndirməkdir. Bu yanaşma, davamlı və etik maliyyə qərarları qəbul etməyə kömək edir və həm banklar, həm də cəmiyyət üçün daha dayanıqlı və məsuliyyətli iqtisadi artım təmin edir.

Kreditlərin təhlili mərhələsində ESİ risklərinin sistemli qiymətləndirilməsi məqsədilə Bank tərəfindən ESİ skorinq mexanizmi tətbiq olunur. Bu mexanizm borcalanların fəaliyyət sahəsi, coğrafi həssaslıq, resurslardan asılılıq, çirklənmə və emissiyalar, ətraf mühitin idarəetmə sistemi və keçid riskləri kimi meyarlar əsasında qiymətləndirilməsini nəzərdə tutur. Formalaşan məcmu ESİ skoru əsasında borcalanlar aşağı, orta, yüksək və çox yüksək ESİ risk kateqoriyalarına təsnifləşdirilir və kredit qərarları risk əsaslı yanaşma çərçivəsində qəbul edilir. Bununla yanaşı, Bank ekoloji risklərin uzunmüddətli maliyyə, reputasiya və uyğunluq riskləri yaratdığını nəzərə alaraq ekoloji risklərə əsaslanan kredit məhdudiyyətləri tətbiq edir. Ətraf mühitə əhəmiyyətli mənfi təsir göstərə bilən fəaliyyət sahələri üzrə kreditləşmə məhdudlaşdırılır, gücləndirilmiş yoxlama prosedurlarına cəlb olunur və ya müvafiq hallarda maliyyələşdirilməsindən imtina edilir.

Kreditlərin təhlili mərhələsində ESİ skorinq mexanizmi kredit müraciətlərinə baxılarkən borcalanların ESİ riskləri əsas meyarlar üzrə qiymətləndirilir. Hər meyar üzrə təyin olunan skor əsasında məcmu ESİ skoru formalaşır. Skorinq nəticələri kredit qərarlarının qəbulunda Bankın ümumi kredit riskinin qiymətləndirilməsi prosesinin tərkib hissəsi kimi istifadə olunur.


ESİ HESABATI

Ekoloji risklərə əsaslanan kredit məhdudiyyətləri

Bank ekoloji risklərin potensial maliyyə və reputasiya təsirlərini nəzərə alaraq aşağıdakı fəaliyyət sahələri üzrə kreditləşməni məhdudlaşdırır, gücləndirilmiş yoxlama prosedurları tətbiq edir və ya maliyyələşmədən imtina edir:

- ✅ Kömür hasilatı və kömür əsaslı elektrik enerjisi istehsalı
- ✅ Qanunsuz ağac kəsmə və meşələrin məhv edilməsi
- ✅ Təhlükəli tullantıların müvafiq utilizasiya mexanizmləri olmadan emalı
- ✅ Qorunan ərazilərdə (milli parklar, qoruqlar) fəaliyyət
- ✅ Ekoloji cəhətdən həssas və ya seysmik qeyri-sabit zonalarda qalıq yanacaq kəşfiyyatı
- ✅ Su ehtiyatlarının qeyri-davamlı istismarı
- ✅ Silah və partlayıcı maddələrin istehsalı və ticarəti
- ✅ Qumar və kazino fəaliyyəti
- ✅ Radioaktiv materialların istehsalı və ticarəti (qanunla icazə verilmiş hallar istisna olmaqla)
- ✅ Uşaq və məcburi əməyin istifadə edildiyi layihələr
- ✅ Arid və yarı quraq zonalarda qeyri-davamlı su çıxarılması

Bu məhdudiyyətlər Bankın Risk İştahası Bəyannaməsinə uyğun olaraq tətbiq edilir və kredit portfelində ekoloji risklərin idarə olunmasına xidmət edir.

“Rabitəbank” ASC-də ESİ məsələləri Bankın korporativ idarəetmə və risklərin idarə edilməsi çərçivəsinə inteqrasiya edilmişdir və aşağıdakı səviyyələrdə təşkil olunur:

Müşahidə Şurası (MŞ)

ESİ üzrə ümumi yanaşmanı, siyasət və strateji sənədləri təsdiq edir və əsas risklərin nəzərə alınmasını təmin edir.

Risklərin İdarəedilməsi Komitəsi

ESİ risklərinin Bankın fəaliyyətinə və risk iştahasına təsirini qiymətləndirir.

İdarə Heyəti

ESİ siyasət və qaydalarının icrasına nəzarət edir və onların əməliyyat və kredit proseslərinə inteqrasiyasını təmin edir.

Risklərin idarəedilməsi departamenti

ESİ siyasət və qaydalarının icrasına nəzarət edir və onların əməliyyat və kredit proseslərinə inteqrasiyasını təmin edir.

Biznes və dəstək bölmələri

ESİ prinsiplərinin gündəlik fəaliyyətlərdə tətbiqinə cavabdehdir.

Dayanıqlı Maliyyə üzrə yol xəritəsi (2025-2028)

2025–2028-ci illəri əhatə edən dövr üçün Bankın ESİ üzrə inkişaf yol xəritəsinin əsas məqsədi ESİ prinsiplərinin Bankın strategiyasına, risklərin idarə edilməsinə və əməliyyat fəaliyyətinə daha dərin inteqrasiyasını təmin etməkdir. Bu mərhələdə ESİ üzrə ölçmə mexanizmlərinin təkmilləşdirilməsi, əsas göstəricilərin müəyyən edilməsi, ESİ risklərinin monitorinqinin gücləndirilməsi və şəffaflığın artırılması nəzərdə tutulur.



- ESİ siyasətinin təsdiqi
- ESİ risklərinin kredit və əməliyyat risk çərçivəsinə daxil edilməsi
- İlkin ESİ hesabatlılıq mexanizmlərinin qurulması



- ESİ məhsullarının portfelə daxil edilməsi
- ESİ göstəricilərinin müstəqil auditi
- ESİ performansına bağlı mükafatlandırma sisteminin tətbiqi



- Rabitəbankın beynəlxalq ESİ reytinqlərində iştirakının təmin olunması
- Beynəlxalq bazarlarda ESİ əsaslı (Green Bonds) maliyyələşmənin cəlbi
- ESİ prinsiplərinin tam inteqrasiyası

Kağızsız əməliyyatara keçid istiqamətində görülmüş işlər

- ✅ Bankdaxili sənədləşmə prosesini Elektron Sənəd Dövriyyəsi üzərindən icrası təşkil olunmuşdur.
- ✅ Kredit qovluqlarında istifadə olunan məlumat xarakterli sənədlərin elektron arxivi yaradılmışdır.
- ✅ İnsan Resursları, Maliyyə və Mühasibatlıq prosesinin təşkili üçün HR/Payroll modulunun Bank sisteminə inteqrasiyasına başlanmışdır.

Karbon izi kalkulyatoru tətbiq edilmişdir

Mobil tətbiq üzərindən Karbon izi kalkulyatoru tətbiq edilmişdir.

Məqsəd: Müştərilərin icra etdiyi bank əməliyyatları hesabına formalaşan fərdi CO2 izi hesablana biləcək.

Müştərilər bu kalkulyatoru istifadə edərək, gündəlik bank əməliyyatları zamanı yaranan karbon emissiyalarını azaltmağa kömək edə bilərlər. Karbon izi kalkulyatorları müxtəlif parametrlər əsasında işləyir, belə ki, hər bir əməliyyatın ətraf mühitə təsirini ölçərək, istifadəçilərə daha ekoloji cəhətdən dayanıqlı seçimlər etməyə imkan verir. Kalkulyator, bank əməliyyatlarının müxtəlif aspektlərini nəzərə alaraq, müştərilərə karbon izlərini azaltmaq üçün tövsiyələr təqdim edir və bununla da ətraf mühitin qorunmasına töhfə verir.

Rüşvət və korrupsiyaya qarşı siyasətin hazırlanması

Tərtib olunmuş “Rabitəbank” ASC-nin Rüşvət və Korrupsiyaya qarşı siyasəti illik əsasda təşkil olunan təlimlərimizdə bank əməkdaşlarına təqdim edilir və izah olunur. Həmçinin, “Məlumatlandırma” (Whistleblowing) çərçivəsində aylıq əsasda işçilərə göndərilən məlumatlandırıcı xarakterli elektron məktub ilə “Dələduzluq, rüşvət və korrupsiya” mövzuları əhatə olunaraq və “Rabitəbank” ASC-nin Rüşvət və Korrupsiyaya qarşı siyasəti vasitəsilə işçilərin nəzərinə çatdırılır.

Satınalma prosedurunda ESİ tələbləri

Bank tərəfindən həyata keçirilən bütün satınalma prosedurları ətraf mühitin qorunması, sosial məsuliyyət və korporativ idarəetmə prinsiplərinə uyğun şəkildə aparılmışdır. Bu qaydalarda ESİ tələbləri ətraflı şəkildə qeyd edilmişdir.



BMT dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz



İş yerində təhlükəsizlik və sağlamlıq

Bank tibbi müəssisələrə xeyriyyə və sosial dəstək göstərir.

Bank əməkdaşlar üçün tibbi sığorta proqramları təşkil edir, həmçinin iş xəsarətləri və peşə xəstəlikləri hallarında tibbi xidmət göstərir və müvafiq kompensasiyaların ödənilməsini təmin edir.



İqlim dəyişikliyi

2025-cü ilin sonuna bankın öz inzibati binalarında su istehlakı 2024-cü illə müqayisədə təxminən 10% azaldılmışdır.

Bankın obyektləri üzrə aparılmış enerji auditinin nəticələrinə əsasən müvafiq tədbir və tövsiyələr həyata keçirilir.



Maliyyə məhsul və xidmətlərinin əlçatanlığı
Korrupsiyaya qarşı idarəetmə

Rəqəmsal və fiziki xidmət kanalları təkmilləşdirilərək müştərilərin rahat çıxışı təmin edilmişdir.

Əməkdaşların etik davranış və anti-korrupsiya mövzusunda təlimləri təşkil edilmişdir.

Korrupsiyaya qarşı daxili siyasətlər və prosedurlar yenilənmiş və bütün əməkdaşlar üçün tətbiq edilmişdir.




İşçi heyətin təlimi və inkişafı

Təlim və inkişaf proqramlarının nəticələri mütəmadi qiymətləndirilərək işçi performansının və operativ səmərəliliyin yüksəldilməsi təmin edilmişdir.

İşçi heyətininə peşəkar təlim proqramları hazırlanmış və sistemli şəkildə tətbiq edilmişdir.

Bank təhsil proqramlarını aktiv şəkildə inkişaf etdirir: oflayn seminar və təlimlər təşkil edir, əməkdaşlar üçün distant təhsil kursları hazırlayır və tətbiq edir, həmçinin əməkdaşların xarici təşkilatlarda peşəkar inkişafını dəstəkləyir.



İqtisadi göstəricilər / İqtisadi fəaliyyətin nəticələri
Müştəri məmnuniyyəti
Maliyyə məhsul və xidmətlərinin əlçatanlığı

Rabitə mobile vasitəsilə maliyyə xidmətlərinə əlçatanlığın artırılması

Hüquqi şəxslərin və sahibkarların Bankın korporativ xidmətlərinə daha sürətli və asan çıxışı üçün İnternet Bankçılıq xidmətinin təkmilləşdirilməsi

Bank tərəfindən təqdim edilən Rabitə Junior tətbiqi çərçivəsində azyaşlı müştərilərin maliyyə əməliyyatlarının təhlükəsiz və məsuliyyətli şəkildə həyata keçirilməsi üçün valideyn nəzarət mexanizmləri tətbiq olunması

Xidmət keyfiyyətinin artırılması və əməliyyat effektivliyinin yüksəldilməsi üçün daxili biznes proseslərinin rəqəmsallaşdırılması və avtomatlaşdırılması üzrə davamlı tədbirlər həyata keçirilmişdir.



Rəqəmsallaşma və innovasiya İnformasiya təhlükəsizliyi

İnnovasiya mədəniyyətinin təşviqi çərçivəsində daxili təşəbbüslər dəstəklənmiş və müasir texnologiyaların inteqrasiyası davam etdirilmişdir.

Müştəri təcrübəsinin təkmilləşdirilməsi, əməliyyat effektivliyinin artırılması və xidmət əlçatanlığının genişləndirilməsi məqsədilə rəqəmsal kanalların funksionallığı artırılmış və yeni texnoloji həllər tətbiq edilmişdir.

Hesabat dövründə kibertəhlükəsizlik risklərinin idarə olunması, məlumatların məxfiliyinin və bütövlüyünün təmin edilməsi məqsədilə texniki və inzibati nəzarət mexanizmləri gücləndirilmişdir.

İnformasiya təhlükəsizliyi siyasətlərinin mütəmadi yenilənməsi, işçi heyətin maarifləndirilməsi və monitorinq sistemlərinin təkmilləşdirilməsi nəticəsində potensial təhdidlərin vaxtında aşkarlanması və qarşısının alınması təmin edilmişdir.

BMT dayanıqlı İnkişaf məqsədlərinə töhfəmiz



İqlim dəyişikliyi

Dayanıqlı Maliyyə üzrə yol xəritəsinə ESİ siyasətinə ESİ instqerasiyası (3 illik)

Bankdaxili sənədləşmə prosesini Elektron Sənəd Dövriyyəsi üzərindən icrası təşkil olunmuşdur.

Kreditlərin təhlili mərhələsində ESİ risklərinin sistemli qiymətləndirilməsi məqsədilə Bank tərəfindən ESİ skorinq mexanizmi tətbiq olunur.

ESİ prinsiplərinin kredit verilməsi prosesinə inteqrasiyası

İnvestisiya portfelində ESİ prinsiplərinin inteqrasiyası

İnsan hüquqları, Etik kodeks

İnsan hüquqlarının tanınması, qorunması və təmin olunması Bankın dayanıqlı inkişaf fəaliyyətində əsas prioritetlərdəndir. Bu çərçivədə Bank aşağıdakı məqsədlərə sadiqdir:

- ☑ **İnsan hüquqlarına birbaşa təsir edən fəaliyyətlər üzrə müsbət təsiri davamlı artırmaq və eyni zamanda mənfi təsirin qarşısını almaq və ya yumşaltmaq.**
- ☑ **İşçilər və digər maraqlı tərəflərdən insan hüquqlarının qorunmasına dair geri bildirimləri təmin etmək.**
- ☑ **Bankın məhsul, xidmət və satış kanallarından istifadə üzrə müştəri məmnuniyyətini qiymətləndirmək üçün sistem tətbiq etmək.**

Ekoloji göstəricilər

İllik ekoloji mövzularda təlimlərimiz

2025-ci ildə bütün əməkdaşların iştirakı ilə ekoloji mövzularda təlimlər keçirilmişdir.

“Rabitəbank” ASC-nin ekoloji yanaşması çərçivəsində məqsədləri:

- ☑ Ətraf mühit üzrə performansın davamlı monitorinqini təmin etmək üçün proseslərə Ətraf Mühitin İdarəetmə Sisteminin inteqrasiyası;
- ☑ Bütün ekoloji qanunvericiliyin izlənilməsi və maraqlı tərəflərin gözləntilərinə uyğun fəaliyyətin davam etdirilməsi;
- ☑ İnnovativ və rəqəmsal yanaşmalar vasitəsilə davamlı təkmilləşmənin təmin edilməsi;
- ☑ Təbii resurslardan dayanıqlı istifadə və fəaliyyətlərdən yaranan ekoloji çirklənmənin azaldılması;
- ☑ Effektiv tullantı idarəetməsi vasitəsilə tullantıların minimuma endirilməsi, təkrar istifadə və təkrar emalın təmin olunması;
- ☑ Əməkdaşların və maraqlı tərəflərin ekoloji maarifləndirilməsinin artırılması

İstixana qazı emissiyalarının azaldılması, enerji səmərəliliyinin artırılması və dairəvi iqtisadiyyat təcrübələrinin tətbiqi ekoloji idarəetmə sisteminin əsas prioritetləri sırasındadır. Karbon izi mütəmadi olaraq izlənilir. Bu səylər vasitəsilə məqsəd yalnız ekoloji təsirin azaldılması deyil, həm də maliyyə sektorunun transformasiyasına töhfə verməkdir. Bu çərçivədə tullantıların həcmi, su və enerji istehlakı, istixana qazı emissiyaları kimi əsas təsir sahələri üzrə performans göstəriciləri mütəmadi olaraq izlənilir və əldə olunan məlumatlar davamlı təkmilləşmə yanaşması əsasında qiymətləndirilir.

Ətraf mühitin idarəetmə sistemi ekoloji təsirlərin azaldılması, resurslardan səmərəli istifadə və dayanıqlı biznes təcrübələrinin təşviqi məqsədilə davamlı şəkildə təkmilləşdirilir. ISO 14001 Ətraf Mühitin İdarəetmə Sistemi və ISO 14064 İstixana Qazı Emissiyaları Standartının tətbiqi vasitəsilə ekoloji performans izlənilir və strateji qərarvermə prosesləri üçün etibarlı məlumatlara çıxış təmin edilir.

“Rabitəbank” ASC sektorun ESİ bilik bazasının gücləndirilməsinə töhfə verir və eyni zamanda öz fəaliyyətindən yaranan ekoloji təsirləri yaxından izləyir. İstixana qazı (GHG) emissiyaları hər il hesablanır və şəffaflıq və etibarlılığı təmin etmək məqsədilə müstəqil üçüncü tərəflər tərəfindən təsdiqlənir.

İstixana qazı emissiyaları **ISO 14064-1** standartına uyğun olaraq üç kateqoriya üzrə izlənilir:

01	02	03
Birbaşa emissiyalar **(Scope 1)**	Elektrik istehlakından yaranan dolayı emissiyalar **(Scope 2)**	Digər dolayı emissiyalar **(Scope 3)**

Enerji istifadəsi və istixana qazları emissiyaları: “Rabitəbank” ASC benzin, dizel, təbii qaz kimi yanacaqlardan istifadəyə görə sərf olunan məbləği ətraflı təhlil edir və müvafiq tədbirlər görür. Bu bölmə Bankın enerji və yanacaq istifadəsi üzrə performansını əks etdirir. Göstəricilər işçi başına düşən sərfiyyat və ümumi yanacaq istifadəsini, həmçinin təbii qaz sərfiyyatını izləyərək ekoloji təsirin qiymətləndirilməsinə imkan verir.

Məsələn, bu tədbirlərdən biri sərfiyyatı mümkün qədər azaltmaq məqsədilə hibrid avtomobillərdən istifadənin ediməsinə başlanmışdır. Yanacaq və enerji sərfiyyatının optimallaşdırılması tədbirləri işçi başına düşən sərfiyyatda azalma ilə müşahidə olunur. Bu barədə ətraflı məlumat Cədvəl 1-də qeyd edilmişdir.

Cədvəl 1. Yanacaq növləri üzrə ümumi sərfiyyat əhatə dairəsi **(Scope 1)**.

Göstəricilər	2022	2023	2024	2025
Benzin sərfiyyatı (ton)	86,06	54,86	72,11	71,04
Bir işçiyə düşən benzin (ton)	0,085	0,050	0,059	0,055
Dizel sərfiyyatı (ton)	8,36	16,39	27,51	19,52
Bir işçiyə düşən dizel (ton)	0,008	0,015	0,022	0,015
Təbii qaz sərfiyyatı (min. m^3)	0,09	0,06	0,07	0,07
Bir işçiyə düşən təbii qaz (min. m^3)	0,099	0,066	0,078	0,073



Scope 1 emissiyaları üzrə yanacaq sərfiyyatının təhlili

Bankın birbaşa istixana qazı emissiyalarını (Scope 1) əhatə edən yanacaq sərfiyyatı 2022–2025-ci illər üzrə benzin, dizel və təbii qaz istehlakını əhatə edir. Təhlil göstərir ki, hesabat dövründə yanacaq strukturunda müəyyən dəyişikliklər müşahidə olunmuşdur.

→ **Benzin sərfiyyatı** 2022-ci ildə 86,06 ton təşkil etdiyi halda, 2023-cü ildə əhəmiyyətli azalma (54,86 ton) qeydə alınmışdır. 2024-cü ildə artım (72,11 ton) müşahidə edilsə də, 2025-ci ildə 71,04 ton səviyyəsində sabitləşmə baş vermişdir. Bir işçiyə düşən benzin sərfiyyatının 2022-ci ildə 0,085 ton olduğu halda 2025-ci ildə 0,055 tona qədər azalması əməliyyat səmərəliliyinin və nəqliyyat idarəetməsinin təkmilləşdirildiyini göstərir.

→ **Dizel sərfiyyatı** üzrə isə 2022–2024-cü illərdə artım tendensiyası müşahidə olunmuşdur (8,36 tondan 27,51 tona qədər). 2025-ci ildə isə 19,52 ton səviyyəsində azalma qeydə alınmışdır. Bir işçiyə düşən dizel sərfiyyatının 2024-cü ildə pik həddə (27,51 ton) çatması, lakin 2025-ci ildə 19,52 tona enməsi, nəqliyyat və generator istifadəsində optimallaşdırma tədbirlərinin tətbiq edildiyini göstərir.

→ **Təbii qaz sərfiyyatı** 2022-ci ildə 99,572 min m^3 təşkil etmiş, 2023-cü ildə azalmış (72,409 min m^3), 2024-cü ildə yenidən artmış (94,926 min m^3) və 2025-ci ildə 94,510 min m^3 səviyyəsində nisbətən sabit qalmışdır. Bir işçiyə düşən təbii qaz sərfiyyatının 2022-ci ildə 0,09 min m^3-dən 2025-ci ildə 0,073 min m^3-ə qədər azalması enerji səmərəliliyi tədbirlərinin effektivliyini göstərir.

Cədvəl 2. Əhatə dairəsi-2. Elektrik enerji sərfiyyatı **(Scope 2)**.

Göstəricilər	2022	2023	2024	2025
Elektrik enerjisi sərfiyyatı, kWh	1,695	1,833	1,971	2,145
Bir işçiyə düşən elektrik enerjisi sərfiyyatı, kWh	1,689	1,691	1,640	1,661



Su sərfiyyatı

Göstəricilər	2022	2023	2024	2025
İstifadə olunan həcm, m^3	12,765	13,759	11,478	10,336
Bir işçiyə istifadə olunan həcm, m^3	10,81	12,76	9,54	7,95

Kağız sərfiyyatı

Göstəricilər	2022	2023	2024	2025
Ümumi ofis kağızı və karton göstəriciləri,CO_2 ton	52,555	45,865	52,933	47,825
Bir işçiyə düşən kağız sərfiyyatı, CO_2 kq	52.37	42.27	43.97	37.07

Sosial töhfələr



Lənkəranda iməcilik aksiyası keçirilmişdir

Korporativ sosial məsuliyyət strategiyası çərçivəsində təbiətin qorunması və ekoloji maarifləndirməyə dəstək məqsədilə ekoloji təşəbbüs həyata keçirdik. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi, bankın Lənkəran və Masallı filiallarının əməkdaşlarının iştirakı ilə Lənkəran rayonunun Xanbulan ərazisində iməclilik aksiyası təşkil etdik. Aksiya çərçivəsində ərazidə tullantıların toplanması və təmizlənməsi işləri aparıldı, ümumilikdə 1 tona yaxın məişət tullantısı yığıldı. Aksiyanın əsas məqsədi ətraf mühitin təmiz saxlanılması, yaşıllıq ərazilərinin qorunması və ekoloji dəyərlərə ictimai diqqətin artırılması olub.



Ekoloji məsuliyyət strategiyası çərçivəsində ağacəkmə aksiyası keçirdik

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Bakı şəhərinin Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirdik.

Təbiətin mühafizəsinə və ekoloji tarazlığın qorunmasına töhfə verən bu təşəbbüs çərçivəsində ərazidə 500 ədəd şam və zeytun ağacı əkdik.

Layihənin əsas məqsədi ekoloji davamlılığa töhfə vermək, ətraf mühitin qorunmasını cəmiyyətə daha geniş şəkildə çatdırmaq, həmçinin gənc nəslin təbiətə qayğı ilə yanaşmasını təşviq etmək olub.

Uşaqların Beynəlxalq Müdafiəsi Gününə özəl sosial məsuliyyət təşəbbüsü gerçəkləşmişdir

1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Rabitəbank olaraq sosial məsuliyyətə və ailə dəyərlərinə olan sadiqliyimizi bir daha nümayiş etdirdik. Gələcəyimizin təminatçıları olan uşaqların maariflənməsi və sağlam cəmiyyətin qurulması istiqamətində silsilə tədbirlərdən ibarət xüsusi layihə həyata keçirdik. Təşəbbüsümüzün əsas məqsədi uşaqlarda maliyyə savadlılığını artırmaqla yanaşı, sahibkarlıq ruhunun formalaşdırılması, paylaşma və sosial məsuliyyət kimi vacib dəyərlərin aşılanması oldu. İki mərhələdən ibarət olan bu layihə həm öyrədici, həm də mənəvi baxımdan zəngin bir təcrübə yaratdı.



Qanvermə aksiyası təşkil edilmişdir

Rabitəbank olaraq sosial məsuliyyət strategiyamız çərçivəsində daha bir mühüm təşəbbüsə imza atdıq. 8 May – Beynəlxalq Talassemiya Günü münasibətilə Baş ofisimizdə “Qanınla mənə can olduğun üçün təşəkkürlər, qan dostum” şüarı altında qanvermə aksiyası təşkil etdik. Aksiya Qan Bankının dəstəyi ilə həyata keçirildi.
Bu təşəbbüsümüzün əsas məqsədi irsi qan xəstəliklərinə, xüsusilə də talassemiyaya diqqət çəkmək, bu xəstəliklərlə mübarizə aparan insanlara dəstək olmaq və ölkəmizdə donor mədəniyyətinin inkişafına töhfə verməkdir.



Ramazan bayramı ərəfəsində şəhid ailələri ziyarət edilmişdir

Korporativ sosial məsuliyyət sahəsindəki sadiqliyimizi bir daha nümayiş etdirərək Ramazan bayramı ərəfəsində şəhid ailələrinin yanında olduq. Bankımızın təşkilatçılığı, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi və yerli icra hakimiyyəti orqanlarının təşkilati dəstəyi ilə Kürdəmir, Şamaxı və Ağsu rayonları üzrə 100-dək şəhid ailəsini ziyarət etdik, onlara Ramazan payları təqdim olundu. Ziyarət zamanı bank nümayəndələri, şəhid ailələrini bayram münasibətilə təbrik edərək, qəhrəman şəhidlərimizin əziz xatirələrini ehtiramla yad edib, onların ailələrinə hər zaman dəstək olacaqlarını bir daha vurğuladıq. Şəhid ailələrinə edilən bu dəstək, yalnız maddi yardım göstərmək deyil, həm də onlara ruh yüksəkliyi və bayramın verdiyi ümidin bir hissəsi idi. Xatırladaq ki, bankımız korporativ sosial məsuliyyəti çərçivəsində şəhid ailələri və qazilərə hər zaman həssaslıqla yanaşır və Qarabağ uğrunda döyüşlərin ilk günlərindən bu istiqamətdə çoxsaylı layihələr həyata keçirir.



Zəfər Günü ərəfəsində şəhid ailələri ziyarət edilmişdir

“Rabitəbank” ASC korporativ sosial məsuliyyət strategiyası çərçivəsində II Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin aztəminatlı ailələrinə dəstəyini davam etdirir.

Zəfər Günü münasibətilə həyata keçirilən növbəti sosial aksiya çərçivəsində Bank tərəfindən Masallı, Lənkəran və Lerik rayonlarında yaşayan 100 şəhid ailəsinə ərzaq məhsullarından ibarət sovqatlar təqdim olunmuşdur.

Layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və rayon icra hakimiyyətlərinin dəstəyi ilə reallaşdırılmışdır. Yardım aksiyasının icrasında Nazirliyin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinin regional filiallarının əməkdaşları, yerli icra nümayəndələri və Rabitəbank nümayəndələri iştirak edib.



Rabitəbank sahibkar qadınları beynəlxalq təlimlərə dəvət edib

Rabitəbank qadın sahibkarların inkişafına və onların qlobal bazarlara çıxış imkanlarının genişləndirilməsinə dəstəyini davam etdirir. Bu məqsədlə bank, Asiya İnkişaf Bankı (ADB), Beynəlxalq Ticarət Mərkəzi (ITC) və Ticarət və Davamlılıq Fondu Təşəbbüsünün (TSCFP) birgə təqdim etdiyi mövzular üzrə ödənişsiz onlayn kurslar barədə qadın sahibkarları məlumatlandıraraq bu fürsətdən yararlanmağa təşviq edir.

Sözügedən təlimlər qadın sahibkarları ixraca hazır olub-olmadıqlarını müəyyən etməyə, düzgün bazar seçimi etməyə, ticarət qaydalarını öyrənməyə və effektiv danışıqlar aparmaq kimi əsas bacarıqları inkişaf etdirməyə imkan yaradır. Kurslar beynəlxalq ekspertlər tərəfindən hazırlanıb və rahat şəkildə onlayn formada təqdim olunur.



Əməkdaşlıqlar

UNEC və Rabitəbank arasında əməkdaşlıq memorandumu imzaladıq

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və "Rabitəbank" ASC arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

UNEC-in rektoru, professor Ədalət Muradov və "Rabitəbank" ASC-nin İdarə Heyətinin sədri Aydın Hüseynov tərəfindən imzalanan memorandum universitet-sənaye əlaqələrinin gücləndirilməsi, təhsil və bank sektorları arasında bilik və təcrübə mübadiləsinin genişləndirilməsi məqsədi daşıyır.

Memoranduma əsasən, tərəflər bank sahəsində müasir texnologiyalar və rəqəmsal bankçılıq istiqamətində təcrübə mübadiləsi aparacaq, UNEC-in Ömürboyu Təhsil Mərkəzi ilə birgə kommersiya yönümlü təlimlər həyata keçirəcəklər.

Bundan başqa, memorandumda tələbələr üçün Rabitəbankda müxtəlif növ təcrübə proqramlarının, o cümlədən istehsalat təcrübələrinin təşkili, birgə layihə, konfrans, təlim və seminarların keçirilməsi, həmçinin bank mütəxəssislərinin UNEC-in tədris prosesinə mühaziraçi qismində cəlb edilməsi əks olunub. Əməkdaşlıq çərçivəsində UNEC-də "Karyera günləri"nin təşkili də nəzərdə tutulub.



Rabitəbankın beynəlxalq maliyyə qurumları ilə əlaqələrində yeni uğur

“Rabitəbank” ASC dünyanın ən nüfuzlu maliyyə qurumlarından olan Bank of New York Mellon-da müxbir hesab açaraq beynəlxalq maliyyə əlaqələrini daha da genişləndirib.

Daima beynəlxalq maliyyə qurumları ilə əlaqələrin genişləndirilməsi istiqamətində uğurlara imza atan Rabitəbank, bu əlaqələri davamlı inkişaf etdirərək müştəri məmnuniyyətini ən yüksək səviyyəyə qaldırmağı qarşısına məqsəd qoyur.

Dünyanın maliyyə nəhənglərindən biri olan Bank of New York Mellon ilə əməkdaşlıq da regionda maliyyə xidmətlərinin keyfiyyətini yüksəltmək, beynəlxalq standartlara tam uyğunluğu təmin etmək və rəqabət qabiliyyətini artırmaq istiqamətində atılan önəmli addımlardan biridir.



MÜSİAD Azərbaycan və Rabitəbank arasında əməkdaşlıq memorandumu imzalanıb

MÜSİAD Azərbaycan və Rabitəbank rəhbərliyi birgə əməkdaşlıq çərçivəsində memorandum (MOU) imzalayıb. Görüşdə MÜSİAD Azərbaycanın sədri Rəşad Cabirli və İdarə Heyəti, MÜSİAD Azərbaycanın üzvləri, Rabitəbankın rəhbərliyi, o cümlədən, Müşahidə Şurasının sədri Zakir Nuriyev və İdarə Heyəti sədrinin 1-ci müavini Orhan Gültekin iştirak edib. Tədbirin açılışında MÜSİAD Azərbaycanın sədri Rəşad Cabirli, Rabitəbankla olan əməkdaşlığın genişləndirilməsi məsələsini vurğulayaraq, gələcəkdə daha çox əməkdaşlıqlara birgə imza atacaqlarına inandıqlarını qeyd edib.

Rabitəbankın Müşahidə Şurasının sədri Zakir Nuriyev çıxışı zamanı İslam bankçılığı fəaliyyəti və inkişafından danışaraq, xarici investisiyaların cəlb olunması ilə bağlı ölkədə sahibkarlığın inkişafının artırılmasına diqqət çəkib. O, "İslam Bankçılığı üzrə xarici investisiyaların cəlb olunması, sahibkarlığın inkişafının artırılması ehtiyaclarını qarşılamaq çox vacibdir," - deyə bildirib.

Rabitəbankın İdarə Heyəti sədrinin 1-ci müavini Orhan Gültekin çıxışı zamanı Rabitəbankın 32 ildən çoxdur müştərilərinə geniş çeşiddə maliyyə xidmətləri təqdim etdiyini bildirib. O, qeyd edib ki, bu gün ölkədə ilk dəfə olaraq qlobal miqyasda geniş yayılan İslam Bankçılığının təməlləri qoyulub. Bu prosesdə İslam İnkişaf Bankı (IDB) və Beynəlxalq İslam Ticarət Maliyyə Korporasiyası (ITFC) kimi qurumlardan lazım olan rəsmi icazələr alınıb. Bank bu maliyyə alətlərini müştərilərinə təqdim etməyə davam edəcək.

Tədbirin əsas məqsədi İslam Bankçılığının Azərbaycanın maliyyə sektorunda tətbiqinin genişləndirilməsi, MÜSİAD Azərbaycanın üzvlərinin maliyyə imkanlarını artırmaq və İslam maliyyəsinin ölkədən kənarda daha geniş əhatə olunmasına təkan vermək olub. İslam Bankçılığının Azərbaycanda inkişafı, sahibkarların yeni maliyyə həllərinə çıxışı, Rabitəbankın hədəfləri və işlərə şəffaf yanaşması geniş işıqlandırılan tədbirin yekununda bütün iştirakçılara təşəkkür edilib.

“ECO Ticarət və İnkişaf Bankı” ilə MSME maliyyələşdirmə sazişi imzaladıq

Rabitəbank mikro, kiçik və orta sahibkarlığın (MSME) inkişafına dəstək göstərmək məqsədilə “ECO Ticarət və İnkişaf Bankı” ilə yeni maliyyələşdirmə sazişi imzalayıb. Bu saziş çərçivəsində Rabitəbank sahibkarların maliyyə resurslarına çıxış imkanlarını genişləndirəcək, onların biznes təşəbbüslərinin reallaşdırılmasına və ölkə iqtisadiyyatında dayanıqlı artıma töhfə verəcək. Yeni maliyyələşdirmə xətti həmçinin məşğulluğun artırılmasına, innovasiya təşəbbüslərinin dəstəklənməsinə və regionlarda sahibkarlığın inkişafına xidmət edəcək.

Rabitəbankın İdarə Heyətinin sədri Aydın Hüseynov bu əməkdaşlıqla bağlı bildirib ki: “Rabitəbank olaraq hər zaman sahibkarların yanında olmuşuq. ECO Ticarət və İnkişaf Bankı ilə imzaladığımız bu saziş biznes mühitinə əlavə dəyər qatacaq və daha çox sahibkarın böyüməsinə, yeni iş yerlərinin yaradılmasına şərait yaradacaq. İnanırıq ki, bu əməkdaşlıq Azərbaycanın daha güclü və inklüziv maliyyə ekosisteminin formalaşmasına xidmət edəcək.”

ECO Ticarət və İnkişaf Bankı ilə əməkdaşlıq Rabitəbankın beynəlxalq tərəfdaşlıq şəbəkəsini gücləndirməklə yanaşı, ölkənin strateji iqtisadi hədəflərinə də dəstək verir.



ECO Ticarət və İnkişaf Bankının nümayəndələri Rabitəbankda qonaq oldular

Rabitəbank olaraq ECO Ticarət və İnkişaf Bankının nümayəndələrini yeni ofisimizdə qarşılamaqdan böyük məmnuniyyət duyduq. Görüş zamanı qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti, gələcək inkişaf istiqamətləri və yeni tərəfdaşlıq imkanları barədə geniş fikir mübadiləsi aparıldı.

Regionun iqtisadi inkişafına, dayanıqlı maliyyələşmənin təşviqinə və ticarət əlaqələrinin gücləndirilməsinə xidmət edən birgə təşəbbüslərin həyata keçirilməsi istiqamətində əməkdaşlığımızı daha da genişləndirmək üçün müzakirələr aparıldı.

Qeyd etmək istərdik ki, bu kimi görüşlər bankımız üçün maliyyə sektorunda beynəlxalq əlaqələrin inkişafı, təcrübə mübadiləsinin təşviqi və institusional tərəfdaşlıqların möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.



Müştəriyönümlülük

Müştəriyönümlü yanaşma

“Rabitəbank” ASC müştəriyönümlü strategiyanı institusional inkişafın və maliyyə dayanıqlığının əsas sütunlarından biri kimi müəyyən etmişdir. Bankın fəaliyyətində əsas prioritet müştərilərin ehtiyac və gözləntilərinin düzgün identifikasiyası, bazar dəyişikliklərinə çevik adaptasiya və uzunmüddətli, etibarlı münasibətlərin qurulmasıdır.

Rabitəbank müştəri təcrübəsinin davamlı olaraq təkmilləşdirilməsi məqsədilə rəqəmsal həllərin genişləndirilməsi, innovativ məhsul və xidmətlərin tətbiqi, həmçinin əməliyyat proseslərinin optimallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Rəqəmsal kanalların inkişafı və istifadəçi dostu platformaların tətbiqi müştərilər üçün maliyyə xidmətlərinin əlçatanlığını və rahatlığını artırır, eyni zamanda xidmət keyfiyyətinin vahid standartlar əsasında təmin olunmasına şərait yaradır.

Bank fərdi və korporativ seqmentlər üzrə müştəri ehtiyaclarını təhlil edərək, hədəflənmiş və fərdiləşdirilmiş məhsul təklifləri formalaşdırır. Müştəri məmnuniyyətinin ölçülməsi, rəy və təkliflərin sistemli şəkildə qiymətləndirilməsi, şikayətlərin operativ həlli mexanizmləri müştəri loyallığının artırılmasına və reputasiya risklərinin minimallaşdırılmasına xidmət edir.




Eyni zamanda, etik prinsiplərə, şəffaflığa və məsuliyyətli bankçılıq yanaşmasına əsaslanan xidmət modeli Rabitəbankın müştəriləri ilə qarşılıqlı etimada əsaslanan uzunmüddətli tərəfdaşlıq münasibətlərini gücləndirir. Bankın məqsədi müştərilərinin maliyyə məqsədlərinə çatmasında etibarlı tərəfdaş olmaqla yanaşı, inklüziv və davamlı maliyyə ekosisteminin formalaşmasına töhfə verməkdir.

Müştəri şikayətlərinin idarə edilməsi

“Rabitəbank” ASC üçün müştəri məmnuniyyəti və etibarlı münasibətlərin qorunması dayanıqlı inkişaf strategiyasının əsas elementlərindən biridir. Rəqabətli bazar mühitində bankın nüfuzu və uzunmüddətli maliyyə sabitliyi, birbaşa olaraq müştəri müraciətlərinin operativ, şəffaf və ədalətli şəkildə idarə edilməsindən asılıdır.

Rabitəbank-da müştəri şikayətləri, rəy və təkliflərinin qəbulu və icrası üzrə strukturlaşdırılmış və mərkəzləşdirilmiş idarəetmə mexanizmi tətbiq olunur. Şikayətlərin vahid platforma üzərindən qeydiyyatı, kateqoriyalaşdırılması, icra müddətlərinin müəyyən edilməsi və cavablandırılması prosesi daxili prosedur və metodoloji sənədlərlə tənzimlənir. Bu çərçivədə müraciətlərin araşdırılması, səbəb analizinin aparılması və təkrarlanma risklərinin azaldılması üçün korrektiv tədbirlərin görülməsi təmin edilir. Müştərilər bankla filial şəbəkəsi, Çağrı Mərkəzi, rəsmi internet səhifəsi, onlayn bankçılıq platformaları və sosial media kanalları vasitəsilə əlaqə saxlaya bilirlər. Müraciət kanallarının əlçatanlığı və çevikliyi artırılaraq müştərilərin rahat kommunikasiya imkanları genişləndirilmişdir.




2025-ci il üzrə Rabitəbanka daxil olmuş şikayətlərin statistikası (şəkil) əvvəlki illərlə müqayisədə daha dəqiq və şəffaf uçot sistemi əsasında formalaşdırılmışdır. Statistikaya əsasən 2025-ci il üzrə əsaslı şikayətlərin sayı azalmışdır buna səbəb daxil olan bütün şikayətlər daha detallı araşdırılması və yönləndirilməsi olmuşdur. Hesabat dövrü ərzində daxil olmuş şikayətlərin böyük əksəriyyəti müəyyən edilmiş daxili müddətlər çərçivəsində araşdırılmış və cavablandırılmışdır.

Şikayətlərin analizi nəticəsində xidmət keyfiyyətinin artırılması, proseslərin təkmilləşdirilməsi və müştəri təcrübəsinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər həyata keçirilmişdir. Rabitəbank müştəri şikayətlərini yalnız risk indikatoru deyil, həm də inkişaf və təkmilləşmə üçün geri dönmə mexanizmi kimi qiymətləndirərək davamlı olaraq xidmət standartlarını yüksəltməyi hədəfləyir.

Müştəri məmnuniyyətinin təmin edilməsi

“Rabitəbank” ASC üçün müştəri məmnuniyyətinin təmin edilməsi strateji prioritet olmaqla yanaşı, Bankın maliyyə dayanıqlığının və uzunmüddətli inkişafının əsas şərtlərindən biridir. Müştəriyönümlü yanaşma müştəri loyallığının gücləndirilməsinə, bazar mövqeyinin möhkəmləndirilməsinə və gəlirlərin davamlı artımına birbaşa təsir göstərir.

Universal bank olaraq Rabitəbank fərdi və korporativ müştərilərinə geniş spektrli məhsul və xidmətlər təqdim edir, bütün fəaliyyət istiqamətlərində yüksək xidmət standartlarının qorunmasını təmin edir.



Bank tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin və müştəri yönümlü yanaşmanın qiymətləndirilməsi məqsədilə mütəmadi olaraq müştəri məmnuniyyəti göstəriciləri ölçülür və təhlil edilir. Hesabat dövründə aparılmış ölçmələrin nəticələrinə əsasən, müştəri məmnuniyyəti indeksi 2023-cü ildə 90,6%, 2024-cü ildə 84,29% və 2025-ci ildə 82,35% təşkil etmişdir.

Müşahidə olunan dinamika müştəri təcrübəsinə təsir edən amillərin daha dərindən təhlil edilməsini və xidmət keyfiyyətinin davamlı şəkildə təkmilləşdirilməsini zəruri etmişdir. Bu istiqamətdə bank tərəfindən rəqəmsal kanalların inkişafı, müştəri müraciətlərinin daha operativ və effektiv şəkildə cavablandırılması, eləcə də xidmət proseslərinin optimallaşdırılması üzrə bir sıra təşəbbüslər həyata keçirilmişdir.

Bank müştəri məmnuniyyətinin artırılmasını strateji prioritetlərdən biri kimi müəyyən etmiş və bu sahədə ölçülə bilən hədəflər müəyyənləşdirərək davamlı monitorinq və təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsini təmin etmişdir.

İşçi rifahı və təlimlər

“Rabitəbank” ASC-də insan kapitalının inkişafı və əməkdaşların rifahının təmin edilməsi bankın dayanıqlı inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bank fəaliyyətində əməkdaşların bilik, bacarıq və motivasiyasının əsas dəyər yaradan amillərdən biri olduğunu nəzərə alaraq, onların peşəkar inkişafına və sosial rifahına yönəlmiş sistemli və davamlı yanaşma tətbiq edir.



Müştəri təcrübəsinin təkmilləşdirilməsi məqsədilə Bank filial şəbəkəsi, rəqəmsal platformalar və digər kommunikasiya kanalları üzrə xidmət keyfiyyətinin vahid yanaşma əsasında idarə olunmasını təmin etmişdir. 2025-ci il ərzində müştərilərin ehtiyac və gözləntilərinin daha dərindən öyrənilməsi məqsədilə mütəmadi sorğular keçirilmiş, əldə olunan nəticələr əsasında məhsul və xidmət portfelində təkmilləşdirmələr aparılmışdır. Müştəri məmnuniyyətinin ölçülməsi strukturlaşdırılmış metodologiya əsasında həyata keçirilmiş, göstəricilər illər üzrə müqayisəli təhlil edilmişdir.

Məmnunluq səviyyəsinin davamlı monitorinqi Banka xidmət keyfiyyətinin artırılması, proseslərin optimallaşdırılması və müştəri təcrübəsinin yaxşılaşdırılması istiqamətində operativ qərarlar qəbul etməyə imkan vermişdir. Rabitəbank müştəri məmnuniyyətini eyni zamanda reputasiya risklərinin azaldılması, müştərilərin loyallıq səviyyəsinin yüksəldilməsi və dayanıqlı maliyyə nəticələrinin təmin edilməsi baxımından strateji indikator kimi qiymətləndirir.



Müştərilər və təchizatçılarla qarşılıqlı əlaqə

“Rabitəbank” ASC fiziki və hüquqi şəxslər üçün geniş bank kartları təklif edir – sahibkarlar üçün premium həllərdən tutmuş, uşaqlar üçün ixtisaslaşmış məhsullara qədər. Hər bir kart müasir rəqəmsal xidmətlər, keşbek, hissəli ödəniş imkanı və mobil tətbiq vasitəsilə vəsaitlərin idarə olunması funksiyası ilə müşayiət olunur.

2025-ci ildə “Rabitəbank” ASC pərakəndə maliyyə məhsullarının rəqəmsallaşdırılması istiqamətində mühüm addım atmışdır ki, bu da müştəri xidmətlərinin əlçatanlığını, rahatlığını və sürətini əhəmiyyətli dərəcədə artırmışdır. Əsas nailiyyətlərdən biri onlayn kreditləşmənin inkişafıdır: müştərilər kredit üçün müraciəti tam məsafədən – müraciətdən vəsaitin əldə edilməsinə qədər – mobil tətbiq və ya onlayn bankçılıq vasitəsilə həyata keçirə bilirlər.

Bank tərəfindən faizsiz güzəşt müddəti və bütün ticarət şəbəkələrində (yalnız tərəfdaşlarla məhdudlaşmadan) 3 aya qədər əlavə komissiyasız hissəli ödəniş imkanı təqdim edən çoxfunksiyalı kredit kartı məhsulu müştərilərin istifadəsinə verilmişdir. Kart üzrə 10%-dək keşbek mexanizmi tətbiq olunur ki, bu da müştəri loyallığının artırılmasına və nağdsız əməliyyatların stimullaşdırılmasına xidmət edir.

Bank həmçinin rəqəmsal investisiya xidmətlərini aktiv şəkildə inkişaf etdirir. Artıq ofisə getmədən 5 dəqiqə ərzində broker hesabı açmaq mümkündür. Müştərilər minimal komissiyalarla səhmlər, ETF-lər vasitəsilə ticarət imkanına malik olurlar. Rahat mobil tətbiq investisiyaları real vaxt rejimində izləməyə imkan verir, analitik materiallar və mütəxəssis dəstəyi isə məlumatlı qərarlar qəbul etməyə kömək edir.



Bank kartları



Kartmane Junior — Uşaqlar üçün İnnovativ Maliyyə Məhsulu

Bankın fərdi müştərilər üçün təqdim etdiyi Kartmane Junior kartı erkən yaşda maliyyə savadlılığını artırmaq, uşaqların pul idarəetməsi bacarıqlarını formalaşdırmaq və valideyn nəzarətini asanlaşdırmaq məqsədi ilə xüsusi hazırlanmış debet kart məhsuludur. Bu məhsul Bankın inklüziv maliyyə strategiyasını dəstəkləyərək fərdi müştərilər üçün dayanıqlı maliyyə həllərinin genişləndirilməsinə töhfə verir. Bu məhsul Bankın maliyyə inklüzivliyi və müştəri yönümlü xidmət strategiyasını dəstəkləyir, nağdsız ödəniş mədəniyyətini təşviq edir və fərdi müştərilərin, xüsusilə gənc nəslin maliyyə savadlılığının artırılmasına töhfə verir.



Exim kart


“Rabitəbank” ASC biznes müştəriləri üçün gömrük, vergi və logistika ödənişlərinin effektiv idarə olunması məqsədilə kredit limitli EXIM Kart məhsulunu təqdim edir. Bu maliyyə aləti sahibkarların nağdsız hesablaşmalarda çevik və şəffaf əməliyyatlar aparmasına şərait yaradır və biznes fəaliyyətinin dayanıqlığını dəstəkləyir. Kart yalnız ölkəyə məhsul idxalı və ixracı zamanı yarana biləcək gömrük, vergi və logistika ödənişləri üçün nəzərdə tutulmuşdur və bank hesabına köçürmələr və digər kredit ödənişləri üçün istifadə edilə bilməz. Bu məhsul sahibkarların əməliyyat likvidliyini artırmaq, nağdsız ödəniş mədəniyyətini təşviq etmək və biznesin maliyyə dayanıqlığını gücləndirmək məqsədilə hazırlanmışdır. Exim Kart biznes müştərilərin dövriyyə və xərcləmə ehtiyaclarına uyğunlaşdırılmış çevik kredit həlli olaraq bankın dayanıqlı biznes dəstək məhsulları portfelini zənginləşdirir.

Əməkdaşyönümlülük

2023–2025-ci illər ərzində təşkilatın insan kapitalı davamlı artım dinamikası nümayiş etdirmişdir. Xüsusilə idarəetmə səviyyələrində kadr potensialının gücləndirilməsi diqqətəlayiqdir.


Top menecment səviyyəsində çalışan əməkdaşların ümumi sayı 2023-cü ildə 90 nəfər olduğu halda, 2024-cü ildə 98 nəfərə, 2025-ci ildə isə 113 nəfərə yüksəlmişdir. Bu, üç il ərzində təxminən 25%-dən çox artım deməkdir. Qadınların top menecmentdə təmsilçiliyi say baxımından sabit qalsa da, ümumi struktur daxilində onların iştirakı qorunmuşdur.

Orta menecment səviyyəsində çalışanların sayı bütün illər üzrə nisbətən sabit qalaraq 134–135 nəfər intervalında olmuşdur. Bu, təşkilatın orta idarəetmə səviyyəsində struktur balansını və davamlılığı qoruduğunu göstərir.




Əməkdaşların yaş strukturu təşkilatın gənc və orta yaşlı kadr potensialına üstünlük verdiyini göstərir:
30 yaşa qədər əməkdaşların sayı 2023-cü ildə 414 nəfərdən 2025-ci ildə 498 nəfərə yüksəlmişdir (+20%). 30–50 yaş aralığında olan əməkdaşlar ən böyük paya malik olmaqla 2023-cü ildə 639 nəfərdən 2025-ci ildə 759 nəfərə çatmışdır. 50 yaşdan yuxarı əməkdaşların sayı isə mütənasib şəkildə artaraq 65 nəfərdən 76 nəfərə yüksəlmişdir.


Bu göstəricilər bilik və təcrübənin gənc kadrlara balanslı şəkildə ötürüldüyünü nümayiş etdirir.



Sosial həssas qrupların işə cəlbi - Bank üzrə sosial həssas qrupda çalışanlar 42 nəfər təşkil edir.


2025-ci ildə qadın əməkdaşların payı 41.2% təşkil etmişdir ki, bu da Rabitəbankda gender balansına verilən önəmi və inklüziv iş mühitinin təşviqi istiqamətində atılan addımların müsbət göstəricisidir.





Regionlar üzrə işçi sayında davamlı artım müşahidə olunur:
Bakı və Abşeron üzrə əməkdaşların sayı 2023-cü ildə 779 nəfərdən 2025-ci ildə 896 nəfərə yüksəlmişdir.

Regional ofislər və filiallar üzrə isə 339 nəfərdən 437 nəfərə artım qeydə alınmışdır. Regional ofislərdə artım tempi daha yüksək olmaqla, bu, regionların inkişafına və yerli məşğulluğun artırılmasına yönəlmiş siyasətin göstəricisidir.



Əməkdaşların rifahının təmin edilməsi məqsədilə bank tərəfindən rəqabətqabiliyyətli əmək şəraiti formalaşdırılmış, sosial təminat mexanizmləri gücləndirilmiş və iş mühitinin təhlükəsizliyi prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu çərçivədə əməkdaşlara tibbi sığorta xidmətləri təqdim olunur, onların sağlamlığının qorunması və iş qabiliyyətinin davamlılığının təmin edilməsi məqsədilə müxtəlif dəstək proqramları həyata keçirilir. Eyni zamanda, iş və şəxsi həyat balansının qorunmasına yönəlmiş təşəbbüslər tətbiq edilir ki, bu da əməkdaşların ümumi məmnuniyyət səviyyəsinə müsbət təsir göstərir.

Bank daxilində əməkdaş məmnuniyyətinin və iş mühitinin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə mütəmadi sorğular keçirilir və əldə olunan nəticələr əsasında müvafiq təkmilləşdirmə tədbirləri həyata keçirilir. Bu yanaşma rəhbərliyə əməkdaşların ehtiyaclarını daha dəqiq müəyyən etməyə və idarəetmə qərarlarını məlumat əsaslı şəkildə qəbul etməyə imkan verir.

Təlim və inkişaf istiqamətində “Rabitəbank” ASC tərəfindən strukturlaşdırılmış və davamlı inkişafı təmin edən sistem tətbiq olunur. Bank əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədilə geniş spektri əhatə edən təlim proqramları təşkil edilir. Bu proqramlara yeni işçilərin təşkilata inteqrasiyasını təmin edən uyğunlaşma (onboarding) proqramları, peşəkar biliklərin artırılmasına yönəlmiş ixtisaslaşmış təlimlər, eləcə də idarəetmə və liderlik bacarıqlarının inkişafını hədəfləyən proqramlar daxildir.



Bununla yanaşı, bankda komplayens, əməliyyat risklərinin idarə olunması, informasiya təhlükəsizliyi və digər kritik sahələr üzrə mütəmadi təlimlər keçirilir ki, bu da əməkdaşların risklərə qarşı həssaslığını artırmaqla yanaşı, ümumi nəzarət mühitinin gücləndirilməsinə xidmət edir. Təlim prosesləri yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda onların effektivliyinin qiymətləndirilməsi, əldə olunan nəticələrin ölçülməsi və gələcək inkişaf ehtiyaclarının müəyyən edilməsi istiqamətində kompleks yanaşma tətbiq olunur.

Bank tərəfindən həyata keçirilən təlim və inkişaf təşəbbüsləri əməkdaşların fərdi və peşəkar inkişafını dəstəkləməklə yanaşı, təşkilat daxilində yüksək performans mədəniyyətinin formalaşmasına və insan kapitalının dayanıqlı inkişafına töhfə verir. Eyni zamanda, "Rabitəbank" ASC inklüziv və ədalətli iş mühitinin təşviqinə xüsusi önəm verir, əməkdaşlara bərabər imkanların yaradılması və diskriminasiya hallarının qarşısının alınması istiqamətində müvafiq siyasət və prosedurlar tətbiq edir. Bu yanaşma bankın korporativ dəyərlərinə uyğun olaraq sağlam və etibarlı iş mühitinin formalaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, əməkdaşların rifahı və davamlı inkişafı istiqamətində həyata keçirilən tədbirlər bankın uzunmüddətli dayanıqlılığının təmin edilməsində mühüm rol oynayır və bu sahədə fəaliyyətlər mütəmadi olaraq təkmilləşdirilərək davam etdirilir. "Rabitəbank" ASC-də əməkdaşların bilik və bacarıqlarının davamlı inkişafı insan kapitalının gücləndirilməsi və bankın uzunmüddətli dayanıqlılığının təmin edilməsi baxımından strateji prioritetlərdən biri hesab olunur. Hesabat dövrü ərzində əməkdaşların peşəkar inkişafını dəstəkləmək məqsədilə geniş spektrli təlim və inkişaf proqramları həyata keçirilmiş, müxtəlif istiqamətləri əhatə edən çoxsaylı təlimlər təşkil edilmişdir.



Təlim proqramları bank fəaliyyətinin bütün əsas istiqamətlərini əhatə etməklə, həm texniki biliklərin artırılmasına, həm də əməkdaşların ümumi kompetensiyalarının inkişafına yönəlmişdir. Xüsusilə, əməliyyat risklərinin idarə olunması, komplayens və çirkli pulların yuyulmasına qarşı mübarizə (AML), informasiya təhlükəsizliyi, kredit prosesləri, müştəri xidmətləri və rəqəmsal məhsullar üzrə təşkil olunan təlimlər geniş əməkdaş kütləsini əhatə etmişdir.

Hesabat dövründə ən yüksək iştirak göstəriciləri informasiya təhlükəsizliyi üzrə maarifləndirmə təlimləri, AML istiqamətli təlim proqramları, attestasiya və biliklərin qiymətləndirilməsi ilə bağlı tədbirlər, eləcə də pərakəndə bankçılıq məhsulları və əməliyyat proseslərinə dair keçirilən təlimlər üzrə qeydə alınmışdır. Bu isə bankın risklərin azaldılması, daxili nəzarət mühitinin gücləndirilməsi və tənzimləyici tələblərə uyğunluğun təmin edilməsi istiqamətində sistemli yanaşma tətbiq etdiyini göstərir.

Bununla yanaşı, əməkdaşların peşəkar inkişafını stimullaşdırmaq məqsədilə beynəlxalq sertifikasiya proqramlarında iştirak dəstəklənmişdir. Bu çərçivədə CIA (Certified Internal Auditor), CAMS (Certified Anti-Money Laundering Specialist), ACCA DipIFR, CISA və digər nüfuzlu sertifikasiya və imtahan proqramlarında iştirak təmin edilmiş, həmçinin müvafiq üzvlük və hazırlıq xərcləri bank tərəfindən qarşılanmışdır.

Rəqəmsal transformasiya və innovasiya istiqamətində həyata keçirilən təşəbbüslər çərçivəsində əməkdaşların yeni texnologiyalar üzrə biliklərinin artırılmasına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə “AI və LLM” bootcamp proqramları, data analitika (SQL, Power BI), Agile metodologiyası və digər innovativ sahələr üzrə təlimlər təşkil edilmişdir.



Eyni zamanda, bank daxilində yeni işçilərin təşkilata inteqrasiyasını sürətləndirmək və onların effektiv fəaliyyətə başlamasını təmin etmək məqsədilə genişmiqyaslı adaptasiya (onboarding) proqramları həyata keçirilmişdir. Bu proqramlar çərçivəsində yüzlərlə əməkdaş bankın daxili qaydaları, məhsulları və əməliyyat prosesləri ilə tanış edilmişdir.

Əməkdaşların müştəri yönümlü yanaşmasının gücləndirilməsi məqsədilə xidmət keyfiyyəti, kommunikasiya bacarıqları və müştəri təcrübəsinin idarə olunması istiqamətində də mütəmadi təlimlər keçirilmişdir. Bununla yanaşı, gender bərabərliyi, etik davranış və korporativ dəyərlər üzrə maarifləndirmə tədbirləri təşkil olunaraq inklüziv və sağlam iş mühitinin formalaşdırılmasına töhfə verilmişdir.

Bank tərəfindən həyata keçirilən təlim və inkişaf təşəbbüsləri yalnız biliklərin artırılması ilə məhdudlaşmır, eyni zamanda əməkdaşların performansının yüksəldilməsinə, risklərin daha effektiv idarə olunmasına və ümumi biznes nəticələrinin yaxşılaşdırılmasına xidmət edir. Bu istiqamətdə təlimlərin effektivliyi mütəmadi olaraq qiymətləndirilir, əldə olunan nəticələr əsasında gələcək inkişaf istiqamətləri müəyyən edilir.



Əməkdaşların inkişafı istiqamətində əsas tədbirlər aşağıdakılardır:

✅ Peşəkar təlim və sertifikat proqramları

Maliyyə, risk idarəçiliyi, rəqəmsal bankçılıq və müştəri xidmətləri sahələrində müasir biliklərin artırılması üçün daxili və xarici təlim proqramları təşkil edilmişdir.

✅ Liderlik və idarəetmə bacarıqlarının inkişafı

Menecment səviyyəsində strateji qərarvermə, komanda idarəçiliyi və problem həll etmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə mentorluq və xüsusi inkişaf proqramları tətbiq olunmuşdur.

✅ Karyera inkişaf planları

Hər bir əməkdaş üçün fərdi inkişaf planları hazırlanmış, performans qiymətləndirmələri əsasında peşəkar vəzifə yüksəlişi imkanları təmin edilmişdir.

✅ Rəqəmsal bacarıqlarının artırılması

Bankın rəqəmsallaşma strategiyasına uyğun olaraq əməkdaşlar üçün yeni texnoloji həllərin tətbiqi və məlumat analitikası üzrə təlimlər keçirilmişdir.

✅ Əməkdaşların motivasiyası və inklüziv mühitin təşviqi

Gender balansının qorunması, inklüziv iş mühitinin yaradılması və əməkdaşların təşəbbüskarlığının dəstəklənməsi üçün müxtəlif təşviq mexanizmləri və proqramlar həyata keçirilmişdir.



Gender Bərabərliyi və Liderlik Təlimləri


2025-ci ildə “Rabitəbank” ASC işçi heyətinin inkişafını və inklüziv korporativ mədəniyyətin gücləndirilməsini strateji prioritet hesab edilmiş və hesabat dövründə bank “Birlikdə Güclənək: Qadınlar üçün Liderlik” adlı təlim proqramını həyata keçirmişdir.

Təlimin məqsədləri və töhfələri aşağıdakılardır:

- ✅ **Liderlik və idarəetmə bacarıqlarının inkişafı:** Qadın əməkdaşların idarəetmə və strateji qərarvermə bacarıqlarının gücləndirilməsi.
- ✅ **Gender bərabərliyinin təşviqi:** Bank daxilində inklüziv və bərabər imkanlar mühitinin möhkəmləndirilməsi.
- ✅ **Karyera və peşəkar inkişaf:** Təlim iştirakçılarına yüksəliş imkanlarının artırılması və karyera planlamasında dəstək.
- ✅ **Əməkdaşların motivasiyası:** Qadın əməkdaşların aktiv iştirakını və özünü inkişafını təşviq edən müsbət iş mühiti yaradılması.

Nəticə etibarilə, “Rabitəbank” ASC-də həyata keçirilən genişmiqyaslı və çoxşaxəli təlim proqramları bankın dayanıqlı inkişaf strategiyasına uyğun olaraq insan kapitalının gücləndirilməsinə, innovativ yanaşmanın təşviqinə və korporativ idarəetmə mühitinin daha da təkmilləşdirilməsinə mühüm töhfə verir.

Hesabat dövrü ərzində “Rabitəbank” ASC-də əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədilə genişmiqyaslı təlim və inkişaf fəaliyyəti həyata keçirilmişdir. Təqdim olunan məlumatların təhlili göstərir ki, bank daxilində təlimlər həm kəmiyyət, həm də əhatə dairəsi baxımından yüksək intensivliklə təşkil olunmuşdur.





Əməkdaşların inkişafı

Əməkdaşların İnkişafı və Peşəkarlıq Bacarıqlarının Gücləndirilməsi

“Rabitəbank” ASC üçün əməkdaşlar Bankın dayanıqlı inkişafının və uzunmüddətli uğurunun əsas hərəkətverici qüvvələrindən biridir. Bank əməkdaşların peşəkar inkişafını, iş mühitində rifahını, bərabər imkanların təmin edilməsini və onların təşkilati proseslərdə iştirakını insan kapitalının inkişafı üzrə əsas prioritetlərdən biri kimi qiymətləndirir.

2025-ci il ərzində əməkdaşların bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif istiqamətlər üzrə təlim və inkişaf imkanları təqdim edilmişdir. Təlim proqramları risk və uyğunluq, biznes və məhsullar, rəqəmsal və İT, sertifikasiya, soft skills və onboarding kimi əsas istiqamətləri əhatə etmişdir. Bu yanaşma əməkdaşların həm mövcud vəzifələri üzrə peşəkar səriştələrinin artırılmasına, həm də Bankın dəyişən biznes mühitinə uyğunlaşma qabiliyyətinin gücləndirilməsinə xidmət etmişdir.

Bank yeni əməkdaşların təşkilata inteqrasiyasını asanlaşdırmaq və onların iş mühitinə daha sürətli uyğunlaşmasını təmin etmək məqsədilə onboarding proseslərinə xüsusi diqqət yetirir. Eyni zamanda, əməkdaşların peşəkar sertifikasiyalara və davamlı inkişaf imkanlarına çıxışının dəstəklənməsi onların karyera inkişafına və Bank daxilində ekspertiza səviyyəsinin yüksəldilməsinə töhfə verir.

Rabitəbank sağlam, təhlükəsiz və qarşılıqlı hörmətə əsaslanan iş mühitinin formalaşdırılmasını mühüm hesab edir. Bank əməkdaşlar arasında ayrı-seçkiliyə yol verilməməsi, bərabər imkanların yaradılması və peşəkar münasibətlərin qorunması prinsiplərini dəstəkləyir. Əməkdaşların fikir və gözləntilərinin öyrənilməsi, onların məmnunluq səviyyəsinin qiymətləndirilməsi və əldə olunan nəticələr əsasında inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi insan kapitalının idarə edilməsinin mühüm elementlərindəndir. Əməkdaşların iş və şəxsi həyat arasında balansının dəstəklənməsi, onların sosial və peşəkar ehtiyaclarının nəzərə alınması, eləcə də müasir iş mühitinin tələblərinə uyğun yanaşmaların tətbiqi Bankın əməkdaşayönümlü korporativ mədəniyyətinin inkişafına xidmət edir.

Rabitəbank hesab edir ki, əməkdaşlara investisiya qoyuluşu yalnız onların fərdi inkişafına deyil, eyni zamanda Bankın xidmət keyfiyyətinə, innovasiya potensialına, risklərin effektiv idarə edilməsinə və ümumi maliyyə dayanıqlılığına müsbət təsir göstərir. Bu baxımdan, insan kapitalının davamlı inkişafı Bankın uzunmüddətli dayanıqlılıq strategiyasının ayrılmaz hissəsidir.

Korporativ idarəetmə

Korporativ idarəetmə

Bankımız anlayır ki, Korporativ İdarəetmə Prinsipləri və bu prinsiplərə uyğun fəaliyyət göstərən idarəetmə strukturunun mövcudluğu dayanıqlı inkişaf üçün zəruridir.

İdarə Heyəti, Bankçılıq Qaydalarının müddəalarında müəyyən edilmiş limitlər çərçivəsində kreditlərin verilməsi səlahiyyətini, eləcə də digər səlahiyyətlərini daxili təlimatda müəyyən edilmiş qaydada idarəetmə orqanlarına və menecerlərə həvalə edir. Eyni zamanda, İdarə Heyəti həvalə etdiyi səlahiyyətlərlə bağlı inkişafları izləyir və onların Bankın daxili prosesləri çərçivəsində məsul bölmələr tərəfindən nəzarətdə saxlanılmasını təmin edir.

İqtisadi, ekoloji və sosial məsələlərlə bağlı risklər Risklərin İdarə Edilməsi Komitəsi və Müşahidə Şurası tərəfindən ildə ən azı bir dəfə nəzərdən keçirilir.

İdarə Heyətinin üzvləri Bankın illik Ümumi Yığıncağında Müşahidə Şurası tərəfindən seçilir. Hesabat dövründə "Rabitəbank" ASC-ın İdarə Heyəti ümumilikdə 5 üzvdən ibarət olmuşdur; Audit komitəsi isə üç üzvdən ibarətdir onlardan biri audit komitəsinin müstəqil üzvüdür.





“Rabitəbank” ASC-də korporativ idarəetmə prinsipləri bankın uzunmüddətli dayanıqlılığının təmin edilməsi, maraqlı tərəflərin etimadının qorunması və fəaliyyətin şəffaf, məsuliyyətli və effektiv şəkildə həyata keçirilməsi məqsədilə beynəlxalq qabaqcıl təcrübələr və yerli tənzimləyici tələblər əsasında formalaşdırılmışdır.

Bankda korporativ idarəetmə sistemi səhmdarların hüquqlarının qorunmasını, idarəetmə orqanlarının hesabatlılığını və qərar qəbuletmə proseslərinin şəffaflığını təmin edən strukturlaşdırılmış mexanizmlər üzərində qurulmuşdur. Bu çərçivədə Müşahidə Şurası tərəfindən strateji istiqamətlər müəyyən edilir, İdarə Heyəti isə gündəlik əməliyyat fəaliyyətinə rəhbərlik edir və təsdiq edilmiş strategiyanın icrasını təmin edir.

Risklərin effektiv idarə olunması korporativ idarəetmə çərçivəsinin ayrılmaz tərkib hissəsi olmaqla, bank daxilində “üç müdafiə xətti” modelinə uyğun şəkildə təşkil edilmişdir. Bu model çərçivəsində biznes bölmələri risklərin ilkin idarə olunmasına məsuliyyət daşıyır, risklərin idarə edilməsi və komplayens funksiyaları ikinci xətt olaraq nəzarət mexanizmlərini həyata keçirir, daxili audit isə üçüncü müstəqil təminat funksiyası kimi çıxış edir.

Bankda etik davranış və korporativ dəyərlərə riayət olunması xüsusi önəm kəsb edir və bu məqsədlə əməkdaşlar üçün Davranış Kodeksi tətbiq olunur. Sözügedən kodeks maraqlar toqquşmasının qarşısının alınması, korrupsiya və qeyri-etik davranış hallarının minimuma endirilməsi, eləcə də şəffaf və dürüst iş mühitinin təşviq edilməsini hədəfləyir.

Komplayens strukturu

Komplayens Strukturu

Komplayens funksiyası bankın fəaliyyətinin qüvvədə olan qanunvericiliyə, tənzimləyici orqanların tələblərinə və daxili normativ sənədlərə uyğunluğunun təmin edilməsində mühüm rol oynayır. Bu istiqamətdə mütəmadi monitorinq, nəzarət prosedurları və maarifləndirmə tədbirləri həyata keçirilir.

Bundan əlavə, bankda daxili nəzarət sistemləri və əməliyyat risklərinin idarə olunması mexanizmləri davamlı olaraq təkmilləşdirilir, risk hadisələrinin qeydiyyatı və təhlili aparılır, həmçinin potensial risklərin qarşısının alınmasına yönəlmiş qabaqlayıcı tədbirlər tətbiq olunur.

Dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq, korporativ idarəetmə çərçivəsində ESG amillərinin inteqrasiyası istiqamətində addımlar atılır, qərar qəbuletmə proseslərində ekoloji, sosial və idarəetmə faktorlarının nəzərə alınması təmin edilir.

“Rabitəbank” ASC-də komplayens sistemi normativ tələblərə uyğunluğun təmin edilməsi məqsədilə aşağıdakı üç əsas istiqaməti əhatə edir:

01 Komplayens risklərinin idarə edilməsi;

02 Cinayət yolu ilə əldə olunmuş vəsaitlərin leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması (ƏL/TMM);

03 FATCA və CRS çərçivəsində beynəlxalq vergi hesabatlılığı öhdəliklərinin yerinə yetirilməsi

2024–2025-ci illər üzrə əsas inkişaf istiqamətləri

Hesabat dövründə komplayens və korporativ idarəetmə sahəsində bir sıra mühüm təşəbbüslər həyata keçirilmiş, daxili nəzarət mühiti daha da gücləndirilmişdir.

Müştəri məlumatlarının vahid sistem üzərindən idarə olunması, izlənməsi, mütəmadi yenilənməsi və təhlükəsiz saxlanması proseslərinin daha effektiv qurulmasına xüsusi önəm verilmişdir. Görülən tədbirlər nəticəsində əməliyyat proseslərində həm texniki, həm də insan faktoru ilə bağlı uyğunsuzluqlar nəzərəçarpacaq dərəcədə azaldılmış, daxili prosedurlar daha çevik və məhsuldar hala gətirilmişdir. Bu yanaşma müştərilərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsinə və bankla qarşılıqlı əlaqənin daha sürətli və rahat təşkilinə imkan yaratmışdır.

Eyni zamanda, müştərilərin risk səviyyələrinin qiymətləndirilməsi və effektiv idarə olunması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şübhəli əməliyyatların vaxtında aşkarlanması və qarşısının alınması məqsədilə monitorinq sistemləri təkmilləşdirilmiş, GNİ sisteminə əlavə indikatorlar inteqrasiya edilmişdir.

FATCA və CRS çərçivəsində beynəlxalq vergi hesabatlılığı öhdəliklərinin yerinə yetirilməsi istiqamətində bank tərəfindən müvafiq nəzarət və hesabatlılıq mexanizmləri tətbiq olunur. Bu çərçivədə müştərilərin vergi rezidentliyi statusunun düzgün müəyyən edilməsi, müvafiq məlumatların toplanması və sənədləşdirilməsi, eləcə də hesabatlılıq tələblərinə uyğun şəkildə təqdim edilməsi təmin edilir.



Hesabat dövründə FATCA və CRS tələblərinə uyğun olaraq müştəri məlumatlarının identifikasiyası və təsnifatı prosesləri təkmilləşdirilmiş, məlumatların keyfiyyəti və tamlığı artırılmışdır. Bu məqsədlə daxili sistemlərdə optimallaşdırmalar aparılmış və avtomatlaşdırılmış nəzarət mexanizmləri gücləndirilmişdir.

Eyni zamanda, beynəlxalq vergi şəffaflığı standartlarına uyğunluğun təmin edilməsi üçün mütəmadi monitorinq və yoxlama prosedurları həyata keçirilmiş, aidiyyəti qurumlara hesabatların vaxtında və düzgün təqdim olunması təmin edilmişdir. Bu yanaşma bankın beynəlxalq öhdəliklərə uyğun fəaliyyət göstərməsini və reputasiya risklərinin effektiv idarə olunmasını dəstəkləyir.

Rüşvət və korrupsiyaya qarşı mübarizə/Maraqlar münaqişəsi

Hesabat dövründə etik davranış və şəffaflığın təmin edilməsi məqsədilə daxili normativ baza gücləndirilmişdir. Korrupsiya və rüşvətə qarşı mübarizə, eləcə də maraqlar münaqişəsinin idarə olunması üzrə siyasət və prosedurlar qəbul edilmiş və tətbiqinə başlanılmışdır.

Bank bütün növ korrupsiya və etik pozuntulara qarşı sıfır tolerantlıq prinsipi tətbiq edir. Bu prinsip təşkilatın bütün əməkdaşları üçün məcburi davranış standartı kimi müəyyən edilmiş və korporativ mədəniyyətin ayrılmaz hissəsinə çevrilmişdir.



Məlumatlandırma (Whistleblowing) mexanizmi

Hesabat dövründə korporativ idarəetmə standartlarının gücləndirilməsi məqsədilə daxili məlumatlandırma (whistleblowing) kanalı yaradılmışdır. Bu kanal vasitəsilə bank əməkdaşları qeyri-etik davranışlar, korrupsiya halları, maraqlar münaqişəsi və digər komplayens pozuntuları barədə anonim və ya açıq şəkildə məlumat verə bilirlər.

Məlumatlandırma kanalı 24/7 rejimində fəaliyyət göstərir və daxil olan bütün müraciətlər operativ şəkildə araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilir. Bu mexanizm təşkilatda şəffaflığın artırılmasına və risklərin erkən mərhələdə aşkarlanmasına mühüm töhfə verir.

Sanksiyalara uyğunluq

Beynəlxalq sanksiya rejimlərinə uyğunluğun təmin edilməsi komplayens fəaliyyətinin əsas prioritetlərindən biri olmuşdur. Bank müvafiq beynəlxalq və yerli tənzimləyici qurumların tələblərinə uyğun olaraq fəaliyyət göstərir.

Müştərilərin və əməliyyatların sanksiya siyahıları üzrə yoxlanılması prosesləri təkmilləşdirilmiş, avtomatlaşdırılmış nəzarət mexanizmləri gücləndirilmiş və filtrasiya alqoritmləri optimallaşdırılmışdır. Yüksək riskli yurisdiksiyalar və əməliyyatlar üzrə gücləndirilmiş yoxlama tədbirləri tətbiq edilmişdir. Bu yanaşma bankın hüquqi və reputasiya risklərinin minimuma endirilməsinə xidmət edir.



Təlim və maarifləndirmə

Hesabat dövründə komplayens mədəniyyətinin gücləndirilməsi və əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədilə genişmiqyaslı təlim və maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Bankın bütün struktur bölmələrini və filial şəbəkəsini əhatə edən yüksək səviyyəli təlim proqramları təşkil olunmuş, əməkdaşlara komplayens, ƏL/TMM, sanksiyalar, rüşvət və korrupsiyaya qarşı mübarizə, etik davranış qaydaları və maraqlar münaqişəsinin idarə olunması sahələrində aktual biliklər təqdim edilmişdir.

Keçirilən təlimlər nəzəri biliklərlə yanaşı, praktiki nümunələr və real hadisələr əsasında qurulmuş, əməkdaşların gündəlik fəaliyyətində komplayens tələblərini düzgün tətbiq etmələrinə yönəlmişdir. Təlim proqramları bank əməkdaşlarının əhəmiyyətli hissəsini əhatə etmiş, yüksək iştirak səviyyəsi təmin olunmuşdur.

Bu təşəbbüslər nəticəsində bank daxilində risklərə həssas yanaşma, etik davranış və məsuliyyətli qərarvermə mədəniyyəti daha da gücləndirilmişdir.



Davamlı inkişaf

“Rabitəbank” ASC Komplayens sahəsində davamlı inkişaf prinsipinə sadiq qalaraq daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsini və beynəlxalq təcrübəyə uyğun yanaşmaların tətbiqini davam etdirir. Bu istiqamətdə həyata keçirilən tədbirlər bankın dayanıqlı və effektiv idarəetmə modelinin formalaşdırılmasına möhkəm zəmin yaradır.

Hesabat dövründə komplayens sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi və qabaqcıl təcrübələrin mənimsənilməsi məqsədilə həm beynəlxalq görüşlərdə və peşəkar müzakirə platformalarında, həm də Azərbaycanda təşkil olunan beynəlxalq səviyyəli təlim, seminar və tədbirlərdə aktiv iştirak təmin edilmişdir.

Bu tədbirlər çərçivəsində komplayens, ƏL/TMM, sanksiyalar rejimi və maliyyə monitorinqi sahələrində beynəlxalq standartlar və ən yaxşı təcrübələr müzakirə olunmuş, eyni zamanda müxtəlif xarici ekspertlər və maliyyə institutlarının nümayəndələri ilə fikir mübadiləsi aparılmışdır.

Əldə edilmiş bilik və təcrübələr bankın daxili siyasət və prosedurlarının təkmilləşdirilməsində nəzərə alınmış, komplayens funksiyasının beynəlxalq standartlara uyğun inkişafına töhfə vermişdir. Bu yanaşma bankın qlobal maliyyə mühitində etibarlı, şəffaf və məsuliyyətli institut kimi mövqeyinin daha da gücləndirilməsinə xidmət edir.

“Rabitəbank” ASC işçilərinin peşəkar və şəxsi davranış standartlarını müəyyən edən Etik Kodeksə sadiqliyini prioritet olaraq qiymətləndirir. Etik Kodeks bankın dayanıqlı inkişaf və məsuliyyətli bankçılıq prinsiplərinə uyğun olaraq işçilərin fəaliyyətini tənzimləyir və aşağıdakı məqsədləri daşıyır:

- ☑ **İşçilərin şəffaf, dürüst və etik davranışını təmin etmək;**
- ☑ **Əməkdaşlar arasında məsuliyyətli, inklüziv və hörmətli iş mədəniyyətini gücləndirmək;**
- ☑ **Potensial etik dilemmlərin və maraqların ziddiyyətinin idarə olunmasını təmin etmək;**
- ☑ **Bankın müştəriləri, tərəfdaşları və digər maraqlı tərəfləri qarşısında etibarını və etimadını qorumaq.**

Hesabat dövründə Bank əməkdaşların etik prinsiplərə uyğun fəaliyyətini gücləndirmək məqsədilə davamlı təlimlər və maarifləndirmə proqramları həyata keçirmişdir. İşçilərdən gözlənilən davranış standartları Etik Kodeksdə əks olunmuş, bütün işçilərin bu prinsiplərə riayət etməsi təmin edilmişdir.

Risklərin idarə edilməsi

Risklərin idarə edilməsi

“Rabitəbank” ASC-nin 33 illik bankçılıq təcrübəsinə, risklərin idarə edilməsinə sadiqliyinə və bazar şərtlərinə çevik uyğunlaşma qabiliyyətinə əsaslanaraq real sektoru dəstəkləməklə yanaşı, müştərilərinə yüksək keyfiyyətli məhsul və xidmətlər təqdim etməyə davam etmişdir.

Bankımız tərəfindən yaradılmış risk idarəetmə çərçivəsinin əsas məqsədi, Bankın missiyası, vizyonu, əsas dəyərləri, strateji hədəfləri, eləcə də gəlirlilik və səmərəlilik prinsipləri ilə uyğun şəkildə fəaliyyət göstərməsini təmin etməklə yanaşı, əmanətçilərin və səhmdarların maraqlarının maksimum səviyyədə qorunmasını təmin etməkdir. Bu struktur çərçivəsində maliyyə riskləri ilə yanaşı, ekoloji və sosial risklər də təhlil olunur, ətraf mühit və sosial təsir analizini əhatə edən çoxölçülü yanaşma tətbiq edilir və qiymətləndirmələrin nəticəsinə uyğun olaraq zəruri tədbirlər həyata keçirilir.

Risklərin İdarə Edilməsi Departamenti Bankın üzləşdiyi kredit, bazar, likvidlik və əməliyyat riskləri üzrə müvafiq risk idarəetmə sistemlərini qurur, həmin sistemlərin yetərliliyini və effektivliyini monitorinq edir, riskləri qiymətləndirir, izləyir və hesabatlandırır. Əsas fəaliyyət sahələrinə gözlənilməz bazar şərtlərinin mümkün təsirini qiymətləndirən stress-testlər və ssenari analizləri əsasında irəliyə yönəlik fərziyyələr formalaşdırılır; hər bir risk növü üzrə ayrılmalı olan kapital məbləği hesablanır və təhlillərin nəticələri yuxarı rəhbərliklə paylaşılır.



Rabitəbankda risklərin idarə edilməsi məqsədi ilə risklərin idarə edilməsi strategiyası və risk siyasəti, risk iştahası bəyannaməsi, maliyyə riskləri üzrə fövqəladə hal planı və eyni zamanda risk xəritəsi hazırlanmışdır. Göstərilən sənədlər əsasında bankdaxili qaydalar və proseduralar işlənib hazırlanmış, stress ssenarilərə əsaslanan analitik sistem qurulmuş və Biznes davamlılığı üçün fövqəladə hallar planı hazırlanmışdır.

Bankın bütün strukturları öz işini sistemli şəkildə mövcud olan bankdaxili risk qaydalarına, prosedurlarına uyğun olaraq həyata keçirir.

Rabitəbank risklərin idarə edilməsi istiqamətində həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirir. Belə ki, xarici bankların qabaqcıl təcrübəsinə, nəzarətedici orqanın normativ aktlarına, Bazel komitəsinin tövsiyələrinə əsasən risklər müəyyənləşdirilir və aşağıdakı kateqoriyalar üzrə təsnifləşdirilir:

Likvidlik risklərinin idarə edilməsi

Bank likvidlik riskini siyasət və prudensial tələblər çərçivəsində idarə edir. Məqsəd normal və stress şəraitində öhdəliklərin vaxtında yerinə yetirilməsini təmin edən sabit likvidlik mövqeyinin qorunmasıdır.

Əsas fəaliyyətlər:

- ✅ **Gündəlik likvidlik göstəricilərinin və limitlərin monitorinqi;**
- ✅ **Daxili siyasət və AMB tələblərinə uyğunluğun qiymətləndirilməsi;**
- ✅ **Yeni məhsulların və əməliyyatların likvidlik təsirinin analiz edilməsi;**
- ✅ **Likvidliyə təsir edən daxili və xarici amillərin izlənməsi;**
- ✅ **Stress testlərin keçirilməsi və nəticələrə uyğun tədbirlərin hazırlanması.**

Limit sistemi:

01 Risk iştahası limitləri-strateji sabitlik üçün çərçivə;

02 Erkən xəbərdarlıq indikatorları-potensial təzyiqlərin vaxtında müəyyənləşdirilməsi;

03 Gündəlik əməliyyat likvidliyi limitləri-qısamüddətli ödəniş qabiliyyətinin qorunması.

İstifadə olunan alətlər:

- ✅ Gap analizi (qısa və uzunmüddətli likvidlik boşluqlarının ölçülməsi);
- ✅ LCR və NSFR üzrə uyğunluğun monitorinqi;
- ✅ Stress və ssenari analizləri;
- ✅ Maliyyələşmə mənbələri üzrə təmərküzləşmə riskinin qiymətləndirilməsi;
- ✅ Fövqəladə maliyyələşmə planının tətbiqi

Bazar risklərinin idarə edilməsi

Bazar riskləri faiz, valyuta və qiymətli kağızların qiymət dəyişikliklərindən yarana biləcək itkilərdir. Bank bu riski gündəlik göstəricilər və təsdiqlənmiş limitlər əsasında idarə edir. Əsas fəaliyyətlər:

- ✅ Gap analizi (qısa və uzunmüddətli likvidlik boşluqlarının ölçülməsi);
- ✅ LCR və NSFR üzrə uyğunluğun monitorinqi;
- ✅ Stress və ssenari analizləri;
- ✅ Maliyyələşmə mənbələri üzrə təmərküzləşmə riskinin qiymətləndirilməsi;

Valyuta riski:

- ✅ **Gündəlik likvidlik göstəricilərinin və limitlərin monitorinqi;**
- ✅ **Daxili siyasət və AMB tələblərinə uyğunluğun qiymətləndirilməsi;**
- ✅ **Yeni məhsulların və əməliyyatların likvidlik təsirinin analiz edilməsi;**

Faiz riski:



GAP analizi və faiz həssaslığının ölçülməsi;



Faiz dəyişikliklərinin gəlirliliyə və kapitala təsirinin qiymətləndirilməsi.

Qiymətli kağızlar üzrə risk:

- ✅ **VaR və stress VaR modelləri ilə risk ölçülməsi;**
- ✅ **Portfelin faiz, spread və qiymət dəyişikliklərinə həssaslıq analizi.**

Kredit riski

Kredit risklərinin idarə edilməsi

Kredit riski borcalanın öhdəlikləri tam və ya vaxtında yerinə yetirməməsi nəticəsində yaranan potensial zərərdir. Bank kredit riskini siyasət, modellər və limitlər vasitəsilə idarə edir.

Kreditvermə:

Borcalanın maliyyə vəziyyəti, pul axını və sektor riskinin qiymətləndirilməsi;

Ödəniş intizamı və kredit tarixçəsinin təhlili;

Təminatın hüquqi qüvvəsi, likvidliyi və realizə oluna bilmə qabiliyyətinin yoxlanılması;

Portfel üzrə sektor, region, müştəri qrupları və aidiyyəti şəxslər üzrə limitlərin tətbiqi

Qiymətləndirmə alətləri:

- ✅ **PD, LGD, EAD və gözlənilən itki (EL) hesablamaları;**
- ✅ **Vintaj analizi və gecikmə davranışlarının monitorinqi;**
- ✅ **Portfel və makro səviyyədə stress testlər;**
- ✅ **Tranzisiya matrisləri ilə mərhələ dəyişikliklərinin qiymətləndirilməsi;**
- ✅ **Portfel üzrə qısamüddətli və orta müddətli proqnozlar.**

Əməliyyat risklərinin idarə edilməsi

Əməliyyat risklərinin idarə edilməsi Bankın daxili fəaliyyət sahələrində, biznes proseslərində, informasiya sistemlərində və insan faktorundan irəli gələn risklərin vaxtında identifikasiyası, qiymətləndirilməsi və azaldılması üzrə nəzarət mexanizmlərinin tətbiqi, həmçinin bu risklərin davamlı monitorinqi məqsədilə həyata keçirilən sistemli, kompleks və institusional xarakterli idarəetmə prosesidir.

"Rabitəbank" ASC-də əməliyyat risklərinin idarə edilməsinin məqsədi

Əməliyyat risklərinin idarə edilməsinin əsas məqsədi Bankın strategiyasının reallaşdırılması, Bankın mənfəətinə və kapitalına təsir edən gözlənilən və gözlənilməz zərərlərin qarşısının effektiv alınması məqsədilə əməliyyat risklərinin idarə edilməsi işinin təşkilini və prinsiplərini müəyyən etməkdir.

Əməliyyat risklərinin idarə edilməsi çərçivəsi

Əməliyyat risklərinin idarəetmə çərçivəsi aşağıdakı əsas komponentlərdən ibarətdir.

Risklərin identifikasiyası


Əməliyyat risklərinin vaxtında və düzgün şəkildə müəyyən edilməsi riskin effektiv idarə olunmasının ilkin şərtidir. Bu mərhələdə proseslər, məhsullar, sistemlər və insan amili ilə əlaqəli potensial əməliyyat riskləri təhlil edilir. Risklərin identifikasiyası aşağıdakı vasitələrlə həyata keçirilə bilər:

- ✅ Risk və nəzarət özünüqiymətləndirmə prosesi (RCSA);
- ✅ Hadisə və insidentlərin qeydə alınması və təhlili;
- ✅ Daxili və xarici audit hesabatlarının nəzərdən keçirilməsi;
- ✅ Yeni məhsul və layihələrin risk əsaslı qiymətləndirilməsi;
- ✅ Əsas risk göstəriciləri (KRI-lər).

Risklərin qiymətləndirilməsi
Müəyyən olunmuş risklərin Banka olan potensial təsiri və başvermə ehtimalı qiymətləndirilir. Bu proses həm keyfiyyət, həm də kəmiyyət yanaşmaları əsasında aparılır.

Risklərin azaldılması və nəzarət
Risklərin məqbul səviyyəyə endirilməsi üçün adekvat nəzarət tədbirlərinin tətbiqi həyata keçirilir.

Riskin tənzimlənməsi
Tənzimləmə mərhələsinin məqsədi aşkar edilmiş və qiymətləndirilmiş risklərə münasibətdə cavab strategiyalarının seçilməsi, tənzimləmə tədbirlərinin planlaşdırılması və icrasından ibarətdir. Müəyyən olunmuş risklərə cavab tədbiri məqsədilə aşağıdakı risk yanaşma metodlarından biri tətbiq edilir:



Risklərin monitorinqi
Əməliyyat risklərinin davamlı şəkildə izlənilməsi risk səviyyəsində baş verə biləcək dəyişikliklərin vaxtında aşkar edilməsinə imkan verir.

Hesabatlıq və kommunikasiya
Əməliyyat riskləri ilə bağlı məlumatların aidiyyəti idarəetmə səviyyələrinə vaxtında və şəffaf şəkildə təqdim edilməsi mühüm əhəmiyyət daşıyır.

Rəqəmsallaşma


Rabitəbankdan ölkədə ilk! Uşaqlar üçün maliyyə üzrə mobil tətbiq: Rabita Junior yaradılmışdır

Müasir dövrdə maliyyə savadlılığı yalnız böyüklər üçün deyil, uşaqlar üçün də vacib bacarıqdır. Rabitəbank bu yanaşmanı rəhbər tutaraq ölkəmizdə ilk dəfə olaraq 7–17 yaş arası uşaqlar üçün nəzərdə tutulmuş innovativ maliyyə mobil tətbiqi- Rabita Junior-u istifadəyə verdi.

Rabita Junior sadəcə bir mobil tətbiq deyil. Bu, uşaqların maliyyə ilə ilk tanışlığını düzgün, məsuliyyətli və şüurlu şəkildə qurmaq üçün hazırlanmış, gələcək nəsillərin daha savadlı, planlı fərdlər kimi formalaşmasına xidmət edən müasir texnoloji platformadır. Tətbiq valideynlərə övladlarının maliyyə davranışlarını təhlükəsiz və rahat şəkildə izləməyə, xərclərini idarə etməyə və onlara düzgün maliyyə vərdişləri qazandırmağa imkan yaradır.

Tətbiq Kartmane Junior kartı ilə birlikdə təqdim olunur və uşaqlara büdcə idarəsini öyrətmək üçün real imkanlar təqdim edir. Bu, həm onların müstəqillik hissini gücləndirən, həm də öz maliyyə qərarlarını formalaşdırmağa təşviq edən bir addımdır.





Kartmane Biznes Visa Platinum – Biznes Kartların Dayanıqlı Maliyyə Dəstəyi

“Rabitəbank” ASC biznes müştərilərinə maliyyə idarəetməsində çevikliyi və dayanıqlığı artırmaq üçün “Kartmane Biznes Visa Platinum” debit kart məhsulunu təqdim edir. Bu məhsul sahibkarlara nağdsız əməliyyatlar, əlavə gəlir imkanları və işgüzar üstünlüklər təmin etməklə bankın biznes sektoru üçün inklüziv və dayanıqlı maliyyə ekosistemini dəstəkləyir.

Bu məhsul sahibkarların likvidlik ehtiyaclarını qarşılamaqla yanaşı, nağdsız ödəniş mədəniyyətini təşviq edir və bankın biznes müştərilərə dayanıqlı maliyyə dəstəyi göstərməsi strategiyasını gücləndirir.

Məhsul və xidmətlər üzrə yeniliklərimiz

Rabitabank Invest

“Rabitəbank” ASC fiziki və hüquqi şəxslər üçün geniş bank kartları təklif edir – sahibkarlar üçün premium həllərdən tutmuş, uşaqlar üçün ixtisaslaşmış məhsullara qədər. Hər bir kart müasir rəqəmsal xidmətlər, keşbek, hissəli ödəniş imkanı və mobil tətbiq vasitəsilə vəsaitlərin idarə olunması funksiyası ilə müşayiət olunur.

2025-ci ildə “Rabitəbank” ASC pərakəndə maliyyə məhsullarının rəqəmsallaşdırılması istiqamətində mühüm addım atmışdır ki, bu da müştəri xidmətlərinin əlçatanlığını, rahatlığını və sürətini əhəmiyyətli dərəcədə artırmışdır. Əsas nailiyyətlərdən biri onlayn kreditləşmənin inkişafıdır: müştərilər kredit üçün müraciəti tam məsafədən – müraciətdən vəsaitin əldə edilməsinə qədər – mobil tətbiq və ya onlayn bankçılıq vasitəsilə həyata keçirə bilirlər.

Bank tərəfindən faizsiz güzəşt müddəti və bütün ticarət şəbəkələrində (yalnız tərəfdaşlarla məhdudlaşmadan) 3 aya qədər əlavə komissiyasız hissəli ödəniş imkanı təqdim edən çoxfunksiyalı kredit kartı məhsulu müştərilərin istifadəsinə verilmişdir. Kart üzrə 10%-dək keşbek mexanizmi tətbiq olunur ki, bu da müştəri loyallığının artırılmasına və nağdsız əməliyyatların stimullaşdırılmasına xidmət edir.

İnvestisiya hesablarına mədaxil və məxaric yalnız Rabitəbanka məxsus kart və cari hesablar vasitəsilə həyata keçirilə bilər ki, bu da Bankın müştəri aktivlərini bir mərkəzdə idarə etməyə və risk idarəetməsini effektiv şəkildə təmin etməyə imkan verir. Səhmlər investorun adına depozitar hesablarda saxlanılır və dividend gəlirləri müvafiq investisiya hesabına avtomatik köçürülür.

Ümumilikdə, Rabitabank Invest xidmətinin qurulması Bankın pərakəndə maliyyə məhsullarının rəqəmsallaşdırılması strategiyasının bir hissəsini təşkil edir və müştərilərə maliyyə bazarlarına daha geniş və səmərəli çıxış yolları təmin etməklə, bankın dayanıqlı gəlir mənbələrinin diversifikasiyasına və uzunmüddətli inkişaf perspektivlərinə töhfə verir.

“Mudaraba” depozit məhsulu

2025-ci il ərzində Bank tərəfindən alternativ maliyyə alətlərinin inkişafı və inklüziv bankçılıq xidmətlərinin genişləndirilməsi istiqamətində mühüm addım atılmış və İslami maliyyə prinsiplərinə əsaslanan “Mudaraba” depozit məhsulu yaradılaraq müştərilərə təqdim edilmişdir.

“Mudaraba” modeli tərəflər arasında mənfəət və zərərin bölüşdürülməsi prinsipinə əsaslanır. Bu çərçivədə depozit yerləşdirən müştəri (investor) və Bank (idarəedici tərəf) arasında bağlanmış müqaviləyə əsasən vəsaitlər şəriət prinsiplərinə uyğun maliyyələşdirmə əməliyyatlarına yönləndirilir və əldə olunan mənfəət əvvəlcədən razılaşdırılmış nisbətdə bölüşdürülür. Məhsul faiz mexanizminə deyil, real iqtisadi fəaliyyətə və gəlir paylaşımına əsaslanır.






Bu texnoloji həllər biznes müştərilərin əməliyyat səmərəliliyini artırır, nağdsız ödəniş mədəniyyətini təşviq edir və bankın dayanıqlı maliyyə ekosistemini dəstəkləyir.

“Mudaraba” depozit məhsulunun tətbiqi Bankın məhsul portfelinin diversifikasiyasına, yeni müştəri seqmentlərinin cəlb olunmasına və maliyyə inklüzivliyinin genişlənməsinə töhfə vermişdir. Eyni zamanda, real iqtisadi fəaliyyətin maliyyələşdirilməsinə yönəlmiş bu model dayanıqlı maliyyə yanaşmasına uyğun olaraq vəsaitlərin məhsuldar aktivlərə yönəldilməsini təşviq edir.

Sözügedən təşəbbüs Bankın məsuliyyətli və alternativ maliyyə həllərinin inkişafı, bazar tələbatına uyğun innovativ məhsulların yaradılması və uzunmüddətli maliyyə dayanıqlılığının gücləndirilməsi istiqamətində strateji baxışını əks etdirir.



SWIFT G4C (GPI for Corporates) Həllinin Tətbiqi

2025-ci il ərzində Bank beynəlxalq ödəniş infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm addım ataraq SWIFT platformasının G4C (GPI for Corporates) məhsulunu uğurla test mərhələsindən keçirmiş və real mühitdə istifadəyə vermişdir.

G4C həlli korporativ müştərilərə hesablarına daxil olan beynəlxalq ödənişləri real vaxt rejimində izləmək, ödənişlərin cari statusu və hərəkət marşrutu barədə tam və şəffaf məlumat əldə etmək imkanı yaradır. Bu yenilik beynəlxalq köçürmələr üzrə operativliyin artırılmasına, məlumat əlçatanlığının genişləndirilməsinə və proseslərin optimallaşdırılmasına xidmət edir.

Sistemin əsas funksionallıqları aşağıdakılardır:

- ✅ **Korporativ müştərilər üçün real vaxt rejimində ödənişlərin izlənməsi imkanı;**
- ✅ **SWIFT GPI şəbəkəsi ilə tam inteqrasiya;**
- ✅ **Ödənişlərin hərəkət trayektoriyasının və aralıq bank mərhələlərinin izlənməsi;**
- ✅ **Status yeniləmələrinin avtomatik təqdim edilməsi;**
- ✅ **Müştəri sorğularının və əməliyyat üzrə araşdırma müraciətlərinin azalması.**



2025-ci il ərzində Bankın rəqəmsal transformasiya strategiyası çərçivəsində internet bankçılıq platformasında yeni “Etibarnamə” funksionallığı istifadəyə verilmişdir. Sözügedən yenilik müştərilərə bank əməliyyatlarının həyata keçirilməsi məqsədilə üçüncü şəxsləri məsafədən, elektron qaydada səlahiyyətləndirmək imkanı yaradır. Tətbiq edilmiş bu yenilik əməliyyat proseslərinin optimallaşdırılmasına, müştəri təcrübəsinin yaxşılaşdırılmasına və operativliyin artırılmasına xidmət edir. Eyni zamanda, elektron imza və fərdiləşdirilmiş səlahiyyət mexanizmi vasitəsilə təhlükəsizlik və nəzarət səviyyəsi gücləndirilmişdir.

Bu təşəbbüs Bankın rəqəmsal bankçılıq imkanlarının genişləndirilməsi, əməliyyat risklərinin azaldılması və müştərilər üçün çevik, təhlükəsiz və effektiv xidmət modelinin formalaşdırılması istiqamətində atılmış mühüm addımlardan biridir.

Nağdsız Ödənişlər və Texnoloji Həllər

“Rabitəbank” ASC biznes müştərilərin əməliyyatlarının çevikliyini və maliyyə dayanıqlığını artırmaq məqsədilə innovativ POS-terminal xidmətləri təqdim edir. Hesabat dövründə bank aşağıdakı texnoloji həlləri tətbiq etmişdir:

- ✅ **Təmassız POS-terminal xidməti:** Müştərilər nağdsız ödənişləri sürətli, təhlükəsiz və təmassız şəkildə həyata keçirə bilirlər, bu da dövriyyənin şəffaflığını və maliyyə əməliyyatlarının effektivliyini artırır.
- ✅ **“Verifone X990” yeni nəsil POS-terminalı:** Android əməliyyat sisteminə malik, portativ, yüngül və ekrana toxunma xüsusiyyəti ilə təchiz olunmuş cihazdır.
- ✅ **4G mobil bağlantısı:** Terminalın yüksək sürətli mobil şəbəkə ilə təmin olunması əməliyyatların fasiləsiz və operativ icrasına imkan yaradır.
- ✅ **Çoxfunksiyalı həllər:** POS-terminal kassa aparatının funksiyaları ilə yanaşı, anbar uçotu sistemi, printer funksiyaları və digər əlavə funksiyaları birləşdirir.

Texnoloji yeniliklər

İnternet bankçılıqda platformasında etibarnamə funksionalığı

2025-ci il ərzində Bankın rəqəmsal transformasiya strategiyası çərçivəsində internet bankçılıq platformasında yeni “Etibarnamə” funksionallığı istifadəyə verilmişdir. Sözügedən yenilik müştərilərə bank əməliyyatlarının həyata keçirilməsi məqsədilə üçüncü şəxsləri məsafədən, elektron qaydada səlahiyyətləndirmək imkanı yaradır.

Tətbiq edilmiş bu yenilik əməliyyat proseslərinin optimallaşdırılmasına, müştəri təcrübəsinin yaxşılaşdırılmasına və operativliyin artırılmasına xidmət edir. Eyni zamanda, elektron imza və fərdiləşdirilmiş səlahiyyət mexanizmi vasitəsilə təhlükəsizlik və nəzarət səviyyəsi gücləndirilmişdir.


Bu təşəbbüs Bankın rəqəmsal bankçılıq imkanlarının genişləndirilməsi, əməliyyat risklərinin azaldılması və müştərilər üçün çevik, təhlükəsiz və effektiv xidmət modelinin formalaşdırılması istiqamətində atılmış mühüm addımlardan biridir.



Gömrük Qarantiyalarının İnternet Bankçılıq Üzərindən İcrası

2025-ci il ərzində Bank tərəfindən ticarət maliyyələşməsi istiqamətində rəqəmsal həllərin genişləndirilməsi çərçivəsində gömrük qarantiyalarının internet bankçılıq platforması üzərindən rəsmiləşdirilməsi və icrası funksionallığı istifadəyə verilmişdir. Sözügedən yenilik korporativ müştərilərə gömrük zəmanətlərinin əldə edilməsi prosesini məsafədən, operativ və təhlükəsiz şəkildə həyata keçirmək imkanı yaradır. Yeni mexanizm vasitəsilə müştərilər internet bankçılıq sistemi üzərindən gömrük qarantiyası üçün müraciət edə, tələb olunan sənədləri elektron qaydada təqdim edə və müraciətin icra statusunu real vaxt rejimində izləyə bilirlər. Qarantiyaların təsdiqi və rəsmiləşdirilməsi prosesi daxili risk qiymətləndirmə və səlahiyyət prosedurlarına uyğun olaraq elektron workflow sistemi vasitəsilə həyata keçirilir.

Bu həll nəticəsində gömrük zəmanətlərinin təqdim edilməsi üzrə əməliyyat müddəti optimallaşdırılmış, insan faktoru ilə bağlı gecikmə və səhv riski minimuma endirilmişdir. Eyni zamanda, proseslərin rəqəmsallaşdırılması Bankın əməliyyat dayanıqlılığının gücləndirilməsinə, nəzarət mühitinin təkmilləşdirilməsinə və korporativ müştərilər üçün xidmət keyfiyyətinin yüksəldilməsinə töhfə vermişdir.
Gömrük qarantiyalarının internet bankçılıq üzərindən icrası Bankın rəqəmsal transformasiya strategiyasına uyğun olaraq ticarət maliyyələşməsi alətlərinin modernləşdirilməsi və dayanıqlı maliyyə xidmət modelinin formalaşdırılması istiqamətində mühüm mərhələ hesab olunur.



İnternet Bankçılığa “Sima İmza” ilə Daxilolma İmkanının Tətbiqi

2025-ci il ərzində Bank tərəfindən rəqəmsal identifikasiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində mühüm yenilik həyata keçirilmiş və internet bankçılıq platformasına SİMA elektron imza vasitəsilə daxilolma imkanı təmin edilmişdir. Bu inteqrasiya müştərilərə internet bankçılıq xidmətlərindən istifadə zamanı gücləndirilmiş autentifikasiya (strong customer authentication) mexanizmi təqdim etməklə yanaşı, təhlükəsizlik, hüquqi qüvvə və istifadə rahatlığını bir platformada birləşdirir. “Sima İmza” vasitəsilə daxilolma istifadəçinin şəxsiyyətinin etibarlı və dövlət səviyyəsində tanınmış elektron identifikasiya infrastrukturu üzərindən təsdiq edilməsini təmin edir.

“Sima İmza” ilə inteqrasiya nəticəsində Bankın kibertəhlükəsizlik arxitekturası daha da gücləndirilmiş, istifadəçi identifikasiyası prosesində risklər minimuma endirilmişdir. Eyni zamanda, məsafədən bankçılıq əməliyyatlarının təhlükəsizliyi artırılmış və müştərilər üçün əlavə fiziki daşıyıcılara və ya banka müraciətə ehtiyac olmadan rahat giriş imkanı yaradılmışdır.

Bu təşəbbüs Bankın rəqəmsal transformasiya strategiyası çərçivəsində etibarlı rəqəmsal ekosistemin formalaşdırılması, əməliyyat dayanıqlılığının artırılması və müştəri təcrübəsinin təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Elektron identifikasiya və imza həllərinin tətbiqi uzunmüddətli perspektivdə əməliyyat risklərinin azaldılmasına, hüquqi şəffaflığın gücləndirilməsinə və davamlı maliyyə xidmət modelinin inkişafına xidmət edir.



GRİ standartlarına uyğunluq cədvəli

İstifadə bəyanatı	“Rabitəbank” ASC 01.01.2025-31.12.2025-cü il tarixləri üçün GRI standartlarına uyğun hesabat vermişdir.
GRİ 1 istifadə olunur	GRİ 1: Əsas - 2021

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRİ 2: Ümumi açıqlamalar 2021	2-1 Təşkilati təfərrüatlar	✓ “Rabitəbank” ASC-nin maliyyə qrupu haqqında		
	2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatına daxil edilən qurumlar	✓ Nizamnamə kapitalının strukturu		
	2-3 Hesabat dövrü, tezliyi və əlaqə	✓ Hesabat profili ✓ Yekun qeydlər və məsuliyyət həddi		
	2-4 Məlumatın yenidən təqdim edilməsi	✓ İllik ekoloji izimiz		
	2-5 Kənar əminlik bəyannaməsi	Təqdim olunub		
	2-6 Fəaliyyətlər, dəyər zənciri və digər işgüzar əlaqələr	✓ Rabitəbank maliyyə qrupu haqqında ✓ Missiyamız və strateji baxışımız ✓ Məqsədimiz və dəyərlərimiz ✓ Azərbaycanın bank sektorunun analizi		
	2-7 Əməkdaşlar	✓ Əməkdaşyönümlülük		
	2-8 Əməkdaş olmayan digər işçilər üzrə məlumat	✓ Əməkdaşyönümlülük		
	2-9 İdarəetmə strukturu və tərkibi	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		
	2-10 Ali idarəetmə orqanına namizədlik və seçim	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRİ 2: Ümumi açıqlamalar 2021	2-11 Ali idarəetmə orqanının sədri	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		
	2-12 Təsirlərin idarə olunmasına nəzarətdə ali idarəetmə orqanının rolu	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		
	2-13 Təsirlərin idarə edilməsi üçün səlahiyyətin ötürülməsi	✓ İdarəetmə strukturu ✓ Sosial ✓ İdarəetmə		
	2-14 Dayanıqlı İnkişaf Hesabatında ali idarəetmə orqanının rolu	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		
	2-15 Maraqların toqquşması	✓ İdarəetmə		
	2-16 Vacib məsələlər haqqında ali idarəetmə orqanının məlumatlandırılması	✓ Əməkdaşyönümlülük ✓ İdarəetmə-Daxili və kənar audit		
	2-17 Ali idarəetmə orqanının kollektiv biliyi	✓ Rabitəbank-ın dayanıqlılığa sadiqliyi		
	2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi	✓ İdarəetmə- Mükafatlandırma sistemi		
	2-19 Mükafatlandırma siyasətləri	✓ İdarəetmə- Mükafatlandırma sistemi		
	2-20 Mükafatlandırmanı müəyyən edən proses	✓ İdarəetmə- Mükafatlandırma sistemi		
	2-21 İllik mükafat nisbəti	Məxfilik məhdudiyyətləri		
	2-22 Dayanıqlı İnkişaf Strategiyası haqqında bəyanat	✓ İdarə Heyəti sədrindən ✓ Rabitəbank-ın strateji baxışı ✓ Rabitəbank-ın dayanıqlılığa sadiqliyi		
	2-23 Siyasi öhdəliklər	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	2-24 Siyasi öhdəliklərin daxil edilməsi	✓ Rabitəbank-ın dayanıqlılığa sadiqliyi ✓ Cəmiyyətə töhfə ✓ İdarəetmə-Biznes etikası və dürüstlük		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRİ 2: Ümumi açıqlamalar 2021	2-25 Mənfi təsirləri aradan qaldırmaq üçün proseslər	✓ "Rabitəbank" ASC-nın dayanıqlılığa sadiqliyi ✓ Müştəriyönümlü yanaşma ✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	2-26 Məsləhət və problemləri bildirmək üçün mexanizmlər	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	2-27 Qanun və qaydalara uyğunluq	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	2-28 Üzvlüklər	✓ "Rabitəbank" ASC maliyyə qrupu haqqında		
	2-29 Maraqlı tərəflərin cəlb edilməsinə yanaşma	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	2-30 Kollektiv əmək müqavilələri	✓ Əməkdaşyönümlülük		
Əhəmiyyətli mövzular				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-1 Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi prosesi	✓ Hesabat haqqında		
	3-2 Əhəmiyyətli mövzuların siyahısı	✓ Hesabat haqqında		
İqtisadi fəaliyyət				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Azərbaycan bank sektorunun analizi ✓ Hesabat haqqında ✓ Ekoloji ✓ Cəmiyyətə töhfə		
	201-1 Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması	✓ Azərbaycanın bank sektorunun analizi		
	201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, risklər və imkanlar	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
	201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər planlar	✗ Mövcud deyil		
	201-4 Hökumətdən alınan maliyyə yardımı	✗ Mövcud deyil		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Ümumi açıqlamalar				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ İdarəetmə strukturu ✓ İdarəetmə		
GRİ 202: Bazarda mövcudluq 2016	202-1 Yerli minimal əmək haqqı ilə müqayisədə cinslər üzrə standart əmək haqqı	✓ İdarəetmə		
	202-2 Yerli əhalinin rəhbərlikdə təmsilçiliyi	✗ Mövcud deyil		
Dolayı iqtisadi təsirlər				
GRİ 2: Ümumi açıqlamalar 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ İllik ekoloji izimiz ✓ Cəmiyyətə töhfə		
GRİ 203: Dolayı iqtisadi təsirlər 2016	203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər	✓ ESİ nailiyyətlərimiz ✓ Cəmiyyətə töhfə		
	203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər	✓ İllik ekoloji izimiz ✓ Cəmiyyətə töhfə		
Satınalma təcrübəsi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
GRİ 204: Satınalma təcrübələri 2016	204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti	✗ Mövcud deyil		
Antikorrupsiya				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	205-2 Anti-korrupsiya siyasəti və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
	205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Antirəqabət davranışı				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ Əməkdaşyönümlülük ✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
GRİ 206: Antirəqabət davranışı 2016	206-1 Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər	✓ İdarəetmə-Biznes etikası və dürüstlük		
Vergi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ İdarəetmə		
	207-1 Vergiyə yanaşma	✓ İdarəetmə		
GRİ 207: Vergi 2019	207-2 Vergi idarəçiliyi, nəzarət və risklərin idarə edilməsi	✓ İdarəetmə-Risklərin idarə edilməsi		
	207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı narahatlıqların idarə edilməsi	✓ İdarəetmə-Risklərin idarə edilməsi		
	207-4 Ölkə üzrə hesabat	✓ İdarə heyəti sədrindən		
Materiallar				
GRİ 301: Materiallar 2016	301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə	✓ Ekoloji		
	301-2 Təkrar istifadə olunan materiallar	✗ Mövcud deyil		
	301-3 Geri toplanmış məhsullar və qablaşdırma materialları	✗ Mövcud deyil		
Enerji				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ Ekoloji		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Antirəqabət davranışı				
GRİ 302: Enerji 2026	302-1 Təşkilat üzrə enerji sərfiyyatı	✓ Ekoloji		
	302-2 Təşkilat xaricində enerji	✗ Mövcud deyil		
	302-3 Enerji intensivliyi əmsalı	✓ Ekoloji		
	302-4 Enerji sərfiyyatının azaldılması	✓ Ekoloji		
	302-5 Məhsul və xidmətlərin enerjiyə olan tələbatının azaldılması	✓ Ekoloji		
Su və tullantılar				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecementi	✓ Ekoloji		
GRİ 303: Su və çirkablar 2018	303-1 Sudan ortaq resurs kimi birgə istifadə	✗ Mövcud deyil		
	303-2 Su axıdılması ilə əlaqədar təsirlərin idarə edilməsi	✗ Mövcud deyil		
	303-3 Su çəkilməsi	✗ Mövcud deyil		
	303-4 Su axıdılması	✗ Mövcud deyil		
	303-5 Su sərfiyyatı	✓ Ekoloji		
Biomüxtəliflilik				
GRİ 304: Biomüxtəliflilik 2016	304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya qonşu məkanlarda mövcud olan əməliyyat sahələri	✗ Mövcud deyil		
	304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri	✗ Mövcud deyil		
	304-3 Qorunan və ya bərpa edilən yaşayış yerləri	✗ Mövcud deyil		
	304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Kitabına düşmüş növlərin mövcudluğu	✗ Mövcud deyil		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Ekoloji		
GRİ 305: Emissiyalar 2016	305-1 İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Əhatə dairəsi (Scope) 1)	✓ Ekoloji		
	305-2 İstixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi (Scope) 2)	✓ Ekoloji		
	305-3 Digər istixana effekti yaradan qazların(İEYQ) dolayı emissiyası (Əhatə dairəsi (Scope) 3)	✗ Mövcud deyil		
	305-4 GHG emissiyalarının intensivlik əmsalı	✓ Ekoloji		
	305-5 GHG emissiyalarında azalmalar	✓ "Rabitəbank" ASC -nin dayanıqlılığa sadiqliyi		
	305-6 Ozon qatını məhv edən emissiyalar	✗ Mövcud deyil		
	305-7 NOx, SOx və digər əhəmiyyətli emissiyalar	✗ Mövcud deyil		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRİ 306: Tullantılar 2020	306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər	✗ Mövcud deyil		
	306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi	✗ Mövcud deyil		
	306-3 Yaranan tullantılar	✗ Mövcud deyil		
	306-4 Utilizasiyadan yayındırılmış tullantılar	✗ Mövcud deyil		
	306-5 Utilizasiyaya yönəldilmiş tullantılar	✗ Mövcud deyil		
Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ "Rabitəbank" ASC- nin dayanıqlılığa sadiqliyi		
GRİ 308: Təchizatçıların ətraf mühit üzrə qiymət-ləndirilməsi 2016	308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✓ "Rabitəbank" ASC- nin dayanıqlılığa sadiqliyi		
	308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər	✗ Mövcud deyil		
Məşğulluq				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Cəmiyyətə töhfə ✓ Əməkdaşyönümlülük		
GRİ 401: Məşğulluq 2016	401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi	✓ Əməkdaşyönümlülük		
	401-2 Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar	✓ Əməkdaşyönümlülük		
	401-3 Valideyn məzuniyyəti	✓ Əməkdaşyönümlülük		
İşçi və rəhbər əlaqələri				
GRİ 402: İşçi və rəhbər əlaqələri 2016	402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri	✓ Əməkdaşyönümlülük		
İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Əməkdaşyönümlülük		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi				
GRİ 403: İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi 2018	403-1 İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi üzrə idarəetmə sistemi	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-2 Təhlükənin müəyyən edilməsi, riskin qiymətləndirilməsi və insidentin araşdırılması	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-3 Əməyin mühafizəsi xidmətləri	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-4 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı iştirakı, məsləhətləşməsi və ünsiyyəti	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-5 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimi	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-6 İşçilərin sağlamlığının təşviqi	✓ Əməkdaşyönümlülük		
	403-7 İşgüzar əlaqələrlə birbaşa bağlı sağlamlıq və təhlükəsizliyə təsirlərin qarşısının alınması və yumşaldılması	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-8 Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunan işçilər	✓ Əməkdaşyönümlülük		
	403-9 İşlə əlaqədar xəsarətlər	✗ Mövcud deyil		Məlumat yoxdur
	403-10 İşlə əlaqədar xəstəlik	✗ Mövcud deyil		Məlumat yoxdur
Təlim və təhsil				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Əməkdaşyönümlülük		
GRİ 404: Təlim və təhsil 2016	404-1 Bir əməkdaşın payına düşən illik təlim saatları	✓ Əməkdaşyönümlülük		
	404-2 İşçi bacarıqlarının artırılması və keçid üzrə təlimlər	✓ Əməkdaşyönümlülük		
	404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə gözdən keçirilmiş işçilərin faizi	✓ İdarəetmə		
İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Əməkdaşyönümlülük		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Emissiyalar				
GRİ 405: Müxtəliflik və bərabər imkanlar	405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi	✓ Əməkdaşyönümlülük		
	405-2 Başlanğıc əmək haqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti	✓ İdarəetmə		
Ayrıseçkiliyin olmaması				
GRİ 406: Ayrıseçkiliyin olmaması	406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər	✗ Mövcud deyil		
Birləşmə azadlığı və kollektiv müqavilələr				
GRİ 407: Birləşmə azadlığı və kollektiv müqavilələr 2016	407-1 Fəaliyyət çərçivəsində birləşmə azadlığını və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
Uşaq əməyi				
GRİ 408: Uşaq əməyi 2016	408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✗ Mövcud deyil		
Məcburi əmək				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi ✓ Cəmiyyətə töhfə ✓ Əməkdaşyönümlülük		
GRİ 409: Məcburi əmək 2016	409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi ✓ Cəmiyyətə töhfə ✓ Əməkdaşyönümlülük		

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Təhlükəsizlik tədbirləri				
GRİ 410: Təhlükəsizlik təcrübələri 2016	410-1 Təhlükəsizlik işçilərinin insan haqları üzrə siyasət və prosedurlar barədə təlim keçməsi	✗ Mövcud deyil		Məlumat yoxdur
Yerli xalqların hüquqları				
GRİ 411: Yeri xalqların hüquqları 2016	411-1 Yerli xalqların haqlarının pozulması insidentləri	✗ Mövcud deyil		Məlumat yoxdur
Yerli cəmiyyətlər				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✗ Mövcud deyil		
GRİ 413: Yerli cəmiyyətlər 2016	413-1 Yerli cəmiyyətlərin cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları	✗ Mövcud deyil		
	413-2 Yerli cəmiyyətlərə mövcud və potensial əhəmiyyətli mənfi təsirlərin qiymətləndirilməsi	✗ Mövcud deyil		Məlumat yoxdur
Təchizatçıların sosial qiymətləndirilməsi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
GRİ 414: Təchizatçıların sosial meyarlar üzrə qiymət-ləndirilməsi	414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
	414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər	✓ "Rabitəbank" ASC-nin dayanıqlılığa sadiqliyi		
İctimai siyasət				
GRİ 415: İctimai siyasət 2016	415-1 Siyasi xarakterli ödənişlər və fəaliyyət	✗ Mövcud deyil		Məlumat yoxdur
Müştəri sağlamlığı və təhlükəsizliyi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✗ Mövcud deyil		Məlumat yoxdur

GRİ standart/ Digər mənbə	Açıqlama	Açıqlama statusu	Səhifə	Şərhlər
Müştəri sağlamlığı və təhlükəsizliyi				
GRİ 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016	416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi	✗ Mövcud deyil		Məlumat yoxdur
	416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları	✗ Mövcud deyil		Məlumat yoxdur
Marketinq və etiketləmə				
GRİ 417: Marketinq və etiketləmə 2016	417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri	✓ İnnovasiya və rəqəmsallaşma		
	417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları	✗ Mövcud deyil		Məlumat yoxdur
	417-3 Marketinq kommunikasiyalarında uyğunsuzluq halları	✗ Mövcud deyil		Məlumat yoxdur
Müştəri məxfiliyi				
GRİ 3: Əhəmiyyətli mövzular 2021	3-3 Əhəmiyyətli mövzuların menecmenti	✓ Müştəriyönümlü yanaşma ✓ İdarəetmə-Məlumat məxfiliyi və kibertəhlükəsizlik		
GRİ 418: Müştəri məxfiliyi 2016	418-1 Müştəri konfidensiallığını pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər	✓ Müştəriyönümlü yanaşma ✓ İdarəetmə-Məlumat məxfiliyi və kibertəhlükəsizlik		



Rabitəbank

2026